

# Geosiyasi Rəqabət və Geoiqtisadi Maraqlar Zəminində Xəzər Hövzəsinin

## „Qordi Düyünü“

*Xəzərin statusu və Transxəzər əməkdaşlığı kontekstində İran-Azərbaycan münasibətləri*

Konrad
Adenauer
Stiftung

Konrad-Adenauer-Stiftung (KAS) Almaniya Federativ Respublikasının siyasi fondudur. Azadlıq, sülh və ədalət KAS-ın həm ölkə daxilində, həm də xarici ölkələrdəki fəaliyyətində əsas prinsipidir. Fondun Cənubi Qafqaz üzrə Regional Proqramı demokratikləşmə prosesinin gücləndirilməsinə, vətəndaşların siyasi iştirakçılığının, sosial ədalət və davamlı iqtisadi inkişafın və münaqişələrin sülh yolu ilə həllinin dəstəklənməsinə, habelə bu bölgə ilə Avropa qurumlarının yaxınlaşması istiqamətində layihələr həyata keçirməkdədir.

Konrad-Adenauer-Stiftung
Cənubi Qafqaz üzrə Regional Proqram
Akhvlediani Agmarti 9a 0103 Tbilisi, Gürcüstan
www.kas.de/kaukasus

*Yazılı icazə olmadan Konrad-Adenauer-Stiftung (KAS) tərəfindən nəşr edilmiş materialların kommersiya məqsədi ilə istifadəsinə icazə verilmir.*

*Bu nəşrdəki fikirlər müəllifin şəxsi mülahizələrdir, KAS və ya müəllifin təmsil etdiyi qurum buna görə heç bir məsuliyyət daşımır.*

© Konrad-Adenauer-Stiftung e.V. 2014

## Müəllif Haqqında

**Araz Aslanlı** – Azərbaycan Respublikasının Biləsuvar rayonunda anadan olub. Ali təhsilini Ankaradakı Hacettepe Universitetində, magistratura təhsilini Ankara Universitetində başa vurub. Ankara Universitetində beynəlxalq münasibətlər üzrə doktorantura pilləsindəki təhsilini başa vurmaq üzrədir.

7 il boyunca əvvəlcə Ankaradakı Avrasiya Strateji Araşdırmalar Mərkəzində (ASAM), daha sonra isə Milli Təhlükəsizlik Strategiyaları Araşdırma Mərkəzində (TUSAM) işləyib. Hazırda Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin (www.qafsam.org) sədridir.

3 kitabın müəllifi, 7 kitabın həmmüəllifidir. 300-dən çox məqaləsi Azərbaycan, ingilis, türk, alman, fransız və rus dillərində yayınlanıb.

# Xülasə

Bu araşdırmada Xəzər hövzəsinə dair proseslər bir-biri ilə yaxından əlaqəli iki vacib istiqamət üzrə təhlil edilmişdir. Bunlardan biri Xəzərin hüquqi statusu problemi, digəri isə Transxəzər əməkdaşlığıdır. Araşdırmada əvvəlcə hüquqi status probleminin mahiyyətinə və hüquqi statusa dair müzakirələrə, eləcə də Transxəzər əməkdaşlığının istiqamətlərinə, atılan addımlara və mövcud problemlərə toxunulmuşdur. Hər iki istiqamətdəki proseslərdə Xəzəryanı dövlətlərin mövqeyi və addımları ilə yanaşı Avropa Birliyi, ABŞ və Türkiyənin mövqeyi də işıqlandırılmışdır. Xüsusilə Azərbaycan-İran münasibətlərinin həm Xəzərin statusu problemi, həm də Transxəzər ilə qarşılıqlı əlaqəsi təhlil edilmişdir. Araşdırmanın son hissəsində Xəzərin statusu probleminin həlli və Transxəzər əməkdaşlığının genişləndirilməsi ilə bağlı imkanlar, risklər və təkliflər ortaya qoyulmuşdur.

**Mündəricat**


Giriş ........ 6
Xəzərin Statusu Problemi ........ 8
Tarixi Məqam ........ 10
SSRİ-nin Dağılmasından Sonra Ortaya Çıxan Yeni Mənzərə ........ 11
Tərəflərin Mövqeyi ........ 15
a) Rusiya ........ 15
b) İran ........ 16
c) Azərbaycan ........ 18
d) Türkmənistan ........ 20
e) Qazaxıstan ........ 22
İmzalanmış Hüquqi Sənədlər ........ 23
Yekun Qənaət ........ 25
Transxəzər ........ 26
Transxəzər Neft Boru Kəməri ........ 27
Transxəzər Təbii Qaz Boru Kəməri ........ 30
Yekun Rəy ........ 37
Azərbaycan-İran münasibətləri: Xəzərin statusu və Transxəzər ........ 39
Nəticə ........ 44

## Giriş

1990-cı illərin əvvəlində SSRİ-nin dağılmasından və ikiqütblü beynəlxalq münasibətlər sisteminin ortadan qalxmasından sonra ortaya yeni mübarizə sahələri, buna bağlı olaraq da o ana qədər gündəmdə olmayan yeni mövzular və yeni problemlər çıxmışdır. Bu proseslər dünyanın istisnasız hər yerində rəqabətin şərtlərini dəyişmişdir. Amma heç şübhə yoxdur ki, ən çox da o vaxta qədər SSRİ-nin bir parçası kimi böyük və regional güclər üçün əsasən "qapalı məkan" olan Qafqaz və Orta Asiya regionlarında (Avrasiyada) yeni şərtlərin ortaya çıxmasına səbəb olmuşdur. Bu regionlar əksər tədqiqatçılar tərəfindən "böyük oyun"un yeni sahəsi kimi qiymətləndirilmişdir.

Bu regionlar müxtəlif siyasi, iqtisadi, hərbi, mədəni və s. amillərin yanı sıra dörd fərqli inancı təmsil edən nüvə dövlətinin (Rusiyanın, Çinin, Hindistanın və Pakistanın; hansı ki, ilk üçü "qlobal güc" potensialına və müəyyən dərəcədə də iddiasına malikdirlər), eləcə də nüvə silahına malik olmaq istədiyi düşünülən İranın və qlobal iddialarla çıxış etməyə başlayan Türkiyənin ortasında yerləşməsi baxımından ciddi əhəmiyyət daşıyır. Bu araşdırmada müxtəlif istiqamətlər üzrə incələnən Xəzər də məhz müasir beynəlxalq münasibətlər sistemində ən vacib regionlar (mübarizə sahələri) kimi diqqəti cəlb edən Qafqaz, Orta Asiya və Yaxın Şərqin ortasında yerləşən qapalı su hövzəsidir.

SSRİ-nin dağılmasından və ikiqütblü beynəlxalq sistemin ortadan qalxmasından sonra ortaya çıxan yeni mövzular və yeni problemlər arasında "Xəzərin statusu" və "Transxəzər" məsələləri də yer almışdır. Üstündən 20 ildən də artıq vaxt keçməsinə baxmayaraq hər iki mövzu aktuallığını qoruyur. Bunun əsas səbəblərindən biri beynəlxalq siyasətdə əhəmiyyəti daim artan enerji mövzusu ilə bu iki mövzunun yaxından əlaqəli olması, daha dəqiqi qlobal enerji təhlükəsizliyinin təmini məsələsində Xəzər regionunun əhəmiyyətinin getdikcə artması və hər iki məsələnin bununla sıx bağlı olmasıdır. Eyni zamanda hazırda Xəzərətrafı ölkələrin əsas xarici siyasət məsələləri arasında yer alan bu iki mövzu bir biri ilə də yaxından əlaqəlidir və "bir birini tam dəstəkləyirlər".

SSRİ-nin dağılması ərəfəsində ortaya çıxan mövzulardan biri də "İran-Azərbaycan problemi" olmuşdur. Sonrakı hissədə daha geniş izah ediləcək səbəblərə görə Azərbaycanın müstəqilliyinə qovuşması prosesi İranda sistem tərəfindən əsasən narahatlıqla qarşılanırdı. Azərbaycan cəmiyyətində hakim olan düşüncə (və çox vaxt Azərbaycan Respublikasındakı siyasi təmayül) də İranı özü üçün problem kimi görürdü. Bu qarşılıqlı iki mənfi düşüncə münasibətlərin çox vaxt gərgin olmasına səbəb olmuşdur. Azərbaycan-İran münasibətlərindəki gərginliklər digər məqamlarla yanaşı həm də "Xəzərin statusu" və "Transxəzər" məsələləri ilə əlaqədardır.

Belə demək mümkündürsə, Azərbaycan-İran münasibətlərindəki gərginliklər "Xəzərin statusu" və "Transxəzər" məsələləri ilə "simbioz həyat sürür" (həm onlardan qidalanır, həm də onları qidalandırır). Xüsusilə "Xəzərin statusu" məsələsində sanki əsas problem İran-Azərbaycan anlaşmazlığıdır (təbii ki, digər məsələlər də var və bütün bunlara əlaqədar hissədə toxunulacaqdır). "Transxəzər" məsələsində isə İran bu rolu, ağırlıq Rusiyada olmaqla bu dövlət ilə bölüşür.

Son illərdə aktuallaşan Avropanın enerji təhlükəsizliyi mövzusu və Rusiya Federasiyasının enerjidən xarici siyasətdə xüsusi vasitə (bir çoxlarına görə şantaj vasitəsi) kimi istifadə etməsi Xəzər hövzəsinin enerji ehtiyatlarına olan marağın daha da böyüməsinə səbəb olmuşdur. Bu da öz növbəsində Xəzərin statusu və Transxəzər məsələlərinə dair irəliləyiş, eyni zamanda problemi böyütmə səylərini artırmışdır.

Beləliklə, "Xəzərin statusu" və "Transxəzər" məsələlərinin hazırkı şəkildə gündəmə gəlməsinin iki əsas səbəbi kimi;

1) SSRİ-nin dağılmasıyla yeni mübarizə sahələrinin (yeni hüquqi-siyasi mənzərənin) yaranması;

2) Və Xəzər regionunun zəngin neft və təbii qaz ehtiyatlarına malik olması qeyd oluna bilər.

Bu araşdırmada əvvəlcə "Xəzərin statusu", sonra "Transxəzər" məsələsi izah ediləcək, daha sonra isə İran-Azərbaycan münasibətlərinin bu iki məsələ ilə qarşılıqlı əlaqəsi təhlil ediləcəkdir. Növbəti iki mövzu üçün də baza təşkil etməsi baxımından "Xəzərin statusu" mövzusuna daha geniş yer verilcəkdir. Qeyd olunan məsələlərə dair proseslər analiz edilərək səbəb və nəticələri ortaya qoyulacaqdır. Sonda hadisələrin gələcək inkişafına dair ehtimallara toxunulacaqdır.

## Xəzərin Statusu Problemi

### *Coğrafi Xüsusiyyətlər: Dəniz yoxsa Göl?*

Xəzərin şimal-cənub xətti üzrə uzunluğu təxminən 1200 km, eni ən dar nöqtədə 195 km, ən geniş yerdə isə 554 km (orta eni 320 km), sərhədlərinin ümimi uzunluğu 6500 km, ümumi sahəsi təxminən 370 min $km^2$-dir. Xəzərdə suyun səviyyəsi müxtəlif dövrlərdə artıb ya da azalıb. Bu Xəzərin ümumi sahəsinə təsir etdiyi kimi, Xəzərin statusu məsələsi ilə də yaxından əlaqəlidir. Belə ki, Xəzərin şərq sahilləri qərb sahillərinə nisbətən daha düzənlikdir. Bu da öz növbəsində sular yüksəldiyi zaman sahə genişləməsinin daha şərqə doğru getməsinə və beləliklə həm də "orta xəttin" şərqə doğru yer dəyişdirməsinə səbəb olur.[1]

Ümumi fikir budur ki, SSRİ-nin dağılmasından sonra Xəzərsahili dövlətlərin sayının ikidən beşə yüksəlməsi Xəzər dənizinin hüquqi statusuna yenidən baxılmasını zəruri etdi. Amma hüquqi statusa dair müzakirələrin uzun və əsasən nəticəsiz davam etməsi Xəzərin coğrafi xüsusiyyətlərindən, onun qapalı su hövzəsi olmasından, dəniz ya da göl və s. olması ilə bağlı mübahisələrdən qaynaqlanır. SSRİ dağıldıqdan sonra Birləşmiş Millətlər Dəniz Hüququ Konvensiyası (BMDHK) çərçivəsində Xəzərə necə yanaşılacağı ilə mübahisələr olmuşdur. Konvensiyanın 122-ci maddəsində qapalı və ya yarı qapalı dəniz üçün "iki və ya daha çox dövlət tərəfindən ətrafı çevrilmiş və digər bir dənizə və ya okeana dar bir keçiş yolu ilə bağlı olan və ya tamamilə və ya böyük bir bölümüylə iki və ya daha çox dövlətin ərazi sularından və müstəsna iqtisadi zonasından ibarət olan bir körfəz, bir dəniz hövzəsi və ya bir dəniz mənasına gəlir" şəklində tərif verilmişdir.

Xəzərin digər dənizlərlə və okeanlarla bir başa əlaqəsi yoxdur. Tarixən Qara dəniz ilə su yoluyla bağlı olduğu bildirilən Xəzər hazırda sadəcə Volqa və Don çaylarının qollarına əlavə edilən kanallar vasitəsi ilə Qara dəniz və Baltik dənizinə bağlanmışdır. Əgər bu kanallar vasitəsi ilə dünya okeanı (açıq dənizlərlə) ilə əlaqəsi nəzərə alınaraq Xəzərə yarı-qapalı dəniz statusu verilsə, onda "coğrafi cəhətdən əlverişsiz mövqeyə malik ölkə"[2] kimi Azərbaycan, Qazaxıstan və Türkmənistana bu kanallardan istifadə hüququ da tanınmalıdır. Beləliklə Don-Volqa və Volqa-Baltik kanallarında beynəlxalq su yolu rejimi tətbiq olunmaldır. Rusiya isə bu kanalları tamamən öz daxili suları hesab edərək (eyni zamanda onların təbii kanal olmaması fikrini irəli sürərək) bunlara beynəlxalq hüququn tətbiq olunmasının əleyhinədir. Digər səbəblərlə yanaşı həm də buna görə Xəzərə "yarı-qapalı dəniz" statusunun verilməsi ehtimalı çox zəifdir.

Xəzər göl olaraq dəyərləndildiyi halda onun statusu sadəcə sahilyanı dövlətlər arasında imzalanacaq bir sənəd ilə tənzimlənməlidir. Çünkü beynəlxalq hüquqda göllərin statusuna dair konkret müddəalar yoxdur. Xəzərin göl kimi statusu ilə bağlı əsasən iki təklif ortaya atılır. Bunlardan biri Xəzərdən birgə istifadə, digəri isə Xəzərin sektorlara bölünməsi təklifidir. İlk təklifi irəli sürənlər Xəzərin sahilyanı dövlətlərin birgə mülkiyyəti olduğunu və kondominium (condominium)

---

[1] Thane Gustafson, Aleksey Reteyum, Laurent Ruseckas, The Caspian Sea: Whose Waters? Whose Oil?, Cambridge Energy Research Associates, 1995, July, s. 15

[2] United Nations Convention on the Law of the Sea, s. 44, http://www.un.org/depts/los/convention_agreements/texts/unclos/unclos_e.pdf (oxunma tarixi: 10.06.2014)

prinsipi ilə sahilyanı ölkələr arasında bərabər bölünməsinin vacibliyini qeyd edirlər. Bu tezisinin həm beynəlxalq, həm də Xəzərə dair təcrübəyə əsaslandığını iddia edirlər. Qeyd edək ki, birgə istifadə ilə bağlı sadəcə bir beynəlxalq təcrübə mövcuddur: Salvador, Honduras və Nikaraqua arasındakı Fonseka körfəzi.

Fonseka körfəzinin statusu Beynəlxalq Ədalət Məhkəməsinin (BƏM) qərarı ilə müəyyənləşdirilmişdir. BƏM-in bu qərarın əsasını körfəzin əvvəllər tək bir dövlətə (İspaniyaya) aid olması, uzun müddət boyunca zaman buna uyğun praktikanın formalaşmış olması və yeni dövlətlərin ortaya çıxmasından sonra bu birgə istifadənin ortadan qaldırılmasında fayda görülməməsidir. Ancaq bu təcrübənin Xəzərdə tətbiq olunması demək olar ki, mümkün deyil. Çünkü Xəzər əvvəlki mərhələdə birgə istifadə edilməmişdir. Bu barədəki əks tezislərin (xüsusilə də İranın əvvəlki illərdə imzalanmış sənədlərdən yola çıxaraq birgə istifadə ilə bağlı irəli sürdüyü tezislərin) əsassız olduğu növbəti hissələrdə misallarla izah ediləcəkdir.

Xəzərin milli sektorlara bölünməsi tezisinin isə dünyada nümunələri çoxdur və bu cür bölünmə əksər hallarda "orta xətt" prinsipi" ilə həyata keçirilmişdir. Məsələn, Qazaxıstan ilə Özbəkistan arasında Aral gölü; İsveçrə ilə İtaliya arasında Luqano və Laqo Macore (Maggiore) gölləri; Boliviya ilə Peru arasında Titikaka (Titicaca) gölü[3]; Tanzaniya ilə Uqanda arasındakı Viktoriya gölü (Ukevere); Kanada ilə ABŞ arasındakı Büyük Şimali Amerika gölləri; Malavi ilə Mozambik arasındakı Malavi gölü (Nyasa); Fransa ilə İsveçrə arasındakı Cenevrə gölü; Nigeriya, Çad və Kamerun arasındakı Çad gölü; Almaniya, Avstriya və İsviçrə arasındakı Boden gölü (Bodensee)[4] sahilyanı dövlətlər arasında bu qayda ilə paylaşılmışdır.

Girişdə də qeyd olunduğu kimi Xəzərin statusu məsələsi təkbaşına SSRİ-in dağılması ilə yeni dövlətlərin ortaya çıxmasından daha çox, bölgənin strateji əhəmiyyəti və malik olduğu təbii ehtiyatlar ilə bağlıdır. Xəzərin statusuna dair müzakirələrdə bəzi dövlətlərin qeyri-sabit və konkret prinsipə istinad etməyən mövqeləri bunu daha aydın nümayiş etdirir. Ümumilikdə də bütün ölkələrin məsələyə ümumi maraqlardan daha çox, öz siyasi və iqtisadi maraqları baxımından yanaşmaları problemin həlli qarşısında ciddi maneələr yaratmaqdadır.

---

[3] Elnur Soltan, "Hazar Denizi'nin Hukuki Statüsü: Çizilmeyen Sınırlar", Stratejik Analiz, Cilt 12, Sayı 13, Mayıs 2001, s. 68.

[4] Clive Schofield and Martin Pratt, "Claims to the Caspian Sea", Jane's Intelligence Review, February 1996, s. 78;

## Tarixi Məqam

Xəzərin və hətta bu bölgədə neftdən istifadənin tarixi xeyli qədim olsa da Xəzərin hüquqi statusu müasir mənada beynəlxalq münasibətlər problemi kimi 20-ci əsrin sonlarında ortaya çıxmışdır. Əvvəlki dövrlərdə Xəzər ilə bağlı hazırkı Rusiya Federasiyasının mirasçısı olduğu dövlətlər ilə hazırkı İran İslam Respulikasının mirasçısı olduğu dövlətlər arasında müxtəlif sənədlər imzalanmışdır. 20-ci əsrin əvvəlinə qədər imzalanmış sənədlər Sankt Peterburq (1723)[5], Rəşt (1732)[6], Gülüstan (1813)[7], Türkmənçay (1828)[8] müqavilələridir. Bu sənədlərdə hüquqi baxımdan "status" anlayışı olmamışdır. Bu müqavilələr əsasən Rusiyanın hərbi uğurlarının ardından imzalandığı üçün Rusiyaya Xəzərdə imtiyazlar vermişdir.

Xəzərin hüquqi statusuna daha çox diqqət 1921-ci il fevralın 26-da Moskvada imzalanmış Rusiya-İran müqaviləsində verilmişdir.[9] 26 maddədən ibarət olan bu müqavilənin 3-cü maddəsində deyilir ki, "yüksək səviyyədə danışıq aparan tərəflər 1881-ci ildə sərhəd komissiyası tərəfindən müəyyən edilmiş sərhəd xəttini İran və Rusiya arasında su sərhədi kimi qəbul etməyə razıdırlar, bu sərhəd qorunmalı və toxunulmaz qəbul edilməlidir".[10] (Qeyd etmək lazımdır ki, bu müqavilə ilə təsbit olunan sərhəd xətti Astara-Həsənqulu su sərhəddidir). 25 mart 1940-cı ildə Tehranda imzalanan "Ticarət və dənizçilik haqqında" müqavilənin 12-ci maddəsinin 4-cü bəndində tərəflərə öz sahillərində, 10 dəniz mili genişliyindəki bir sahədə balıqçılıq hüququ tanınmış, 13-cü maddədə isə 1921-ci il tarixli müqaviləyə istinad edilmişdir.[11]

İmzalanmış müqavilələrdə Xəzərin birgə istifadəsinə aid konkret məqamlar qeyd olunmamış, ancaq üçüncü ölkələrin Xəzərdən istifadəsi qadağan edilmişdir. Ümumiyyətlə sonrakı praktika və bəzi qərarlar da göstərmişdir ki, Xəzər heç vaxt iki sahilyanı dövlət tərəfindən birgə mülkiyyət kimi qiymətləndirilməmişdir.[12] Məsələn, 1949-cu ildə SSRİ Xəzərdəki neft ehtiyatlarının işlənməsinə İranın iştirakı olmadan və onunla məsləhətləşmədən başlamışdır. İran isə buna hər hansı bir formada etirazını bildirməmişdir.[13]

---

[5] "Русско-иранский договор 1723", (Böyük Sovet Ensiklopediyasındakı əlaqədar maddə) http://dic.academic.ru/dic.nsf/bse/128723/%D0%A0%D1%83%D1%81%D1%81%D0%BA%D0%BE (12.06.2014); Vyacheslav Gizzatov, "Negotiations on the legal status of the Caspian Sea 1992–1996: view from Kazakhstan", Shirin Akiner (ed.), The Caspian: Politics, Energy and Security, RoutledgeCurzon, 2004, s. 44

[6] "Рештский Договор 1732" (Sovet Tarix Ensklopediyasındakı əlaqədar maddə), http://dic.academic.ru/dic.nsf/sie/14768/%D0%A0%D0%95%D0%A8%D0%A2%D0%A1%D0%9A%D0%98%D0%99 (12.06.2014)

[7] "Гюлистанский мирный договор", "http://www.hrono.ru/dokum/1800dok/18131012ru_per.php (12.06.2014); "Gülüstan Müqaviləsi", http://www.azerbaijan.az/_Karabakh/_Documents/Documents/document_02_a.html (12.06.2014)

[8] "Türkmənçay Müqaviləsi", http://www.azerbaijan.az/_Karabakh/_Documents/Documents/document_03_a.html (12.06.2014); "Туркманчайский мирный договор", http://nik2nik.ru/node/36 (12.06.2014)

[9] Документы внешней политики СССР: Том Третий, Москва, Государственное издательство Политической Литературы, 1959, s. 536

[10] ibid, s. 537

[11] Документы внешней политики СССР: Том Двадцать Третий, Книга Первая, Москва, издательство Международные Отношения, 1995, ss. 179-180.

[12] Gizzatov, qeyd olunan əsər (q.o.ə.), s. 45.

[13] Anar Əkbərov, "Xəzər dənizinin hüquqi statusu", http://jurnal.meclis.gov.az/news.php?id=86 (12.06.2014).

İkincisi, 1964-cü ildə SSRİ ilə İran arasında imzalanan Hava Müqaviləsində iki ölkənin ərazi sularının uc nöqtələrindən keçən düz bir xətt (SSRİ tərəfdə Azərbaycanın Astara yaşayış məntəqəsi ilə Türkmənistanın Həsənqulu yaşayış məntəqəsi arasındakı xətt) Xəzər daxilində hava sərhəddi, Astara-Həsənqulu xəttinin cənub hissəsi İranın, şimal hissəsi isə SSRİ-nin hava sahəsi kimi müəyyənləşdirilmişdir. Bu xətt birbaşa Xəzərin paylaşılması demək olmasa da o dövrdə hər iki dövlətin Xəzərin paylaşılmasına dair mövqelərini göstərməsi baxımından əhəmiyyətlidir.[14]

Üçüncüsü, Sovet donanmasının fəaliyyətini tənzimləyən beynəlxalq-hüquqi xarakterli 1966-cı il tarixli kitabçada Xəzərin SSRİ-yə aid ərazilərindən bəhs edilir və bu sahələrdəki təbii ehtiyatların da SSRİ-yə aid olduğu qeyd olunur.[15]

Dördüncüsü, 1970-ci ildə SSRİ Neft Sənayesi Nazirliyinin Xəzəri milli sektorlara bölmə qərarıdır.[16] Bu qərara əsasən Xəzərin təqribən 113 min $km^2$-i Qazaxıstanın, 80 min $km^2$-i Türkmənistanın, 80 min $km^2$-i Azərbaycanın, 64 min $km^2$-i Rusiyanın payına düşmüşdür.[17] Bu bölgüyə əsasən Xəzərin sadəcə 55 min $km^2$-i (təxminən 14 %-i) İrana qalmışdır. İran həyata keçirilən bu bölgü ilə tanış edilmiş və bölgünün topoqrafik xəritəsi Tehrana da göndərilmişdir. İran isə bu bölgünün aparılmasına heç bir etiraz etməmişdir. Bu bölgü SSRİ respublikalarının da Xəzərdəki sərhədlərini konkret müəyyən etmişdir.[18] Eyni zamanda bu qərardan sonra SSRİ respublikaları hər biri ayrı-ayrılıqda öz ərazilərində zəruri bildikləri işləri görmüşdür.[19] Ancaq İran bu fəaliyyətlərə heç vaxt etiraz etməmiş, hətta Xəzərin özünə aid hissəsində, o cümlədən dənizin dibində təktərəfli addımlar atmışdır.[20]

## SSRİ-nin Dağılmasından Sonra Ortaya Çıxan Yeni Mənzərə

SSRİ-nin dağılması nəticəsində ortaya dörd yeni dövlətin (Rusiya, Azərbaycan, Qazaxıstan və Türkmənistan) çıxması ilə Xəzərin sahilindəki dövlətlərin sayı ikidən beşə yüksəlmiş, bunlardan Azərbaycan, Qazaxıstan və Türkmənistan Rusiya və İranın maraqlarına zidd şəkildə xarici inverstorları bölgəyə cəlb edərək dünya bazarlarına neft və təbii qaz nəql etmək planları qurmuşdur. Beləliklə Xəzərin statusuna dair müzakirələr də başlamışdır. Əslində yuxarıda da qısaca izah edildiyi kimi bu mərhələyə qədər Xəzərə dair müəyyən hüquqi baza və praktika mövcud, SSRİ ilə İran arasındakı sərhəd xətti də konkret idi.

---

[14] Selçuk Çolakoğlu, "Uluslararası Hukuk'ta Hazar'ın Statüsü Sorunu", Ankara Üniversitesi Siyasal Bilgiler Fakültesi Dergisi, Cilt: 53, Sayı: 1-4, Ocak-Aralık 1998, s. 1 15; Gizzatov, q.o.ə., s. 46

[15] Gizzatov,q.o.ə., s. 46.

[16] Yuri Merzliakov, "Legal Status of the Caspian Sea", Millennium: Journal of International Studies. Vol. 45. No.1, 1999, s.34; Yolbars A. Kepbanov, "The New Legal Status Of The Caspıan Sea is The Basis Of Regional Co-Operation And Stability", Journal Of International Affairs, December 1997-February 1998 Volume II - Number 4, http://sam.gov.tr/wp-content/uploads/2012/01/YOLBARS-A.-KEPBANOV.pdf (13.06.2014)

[17] Khoshbakht Yusifzade, "The Status of the Caspian", Azerbaijan International (2.4) Winter 1994, http://azer.com/aiweb/categories/magazine/24_folder/24_articles/24_statuscaspian.html 13.06.2014)

[18] Rüstem Memmedov, "Mejdunarodno-Pravovoy Status Kaspiyskogo Morya: Vçera, Segodnya i Zavtra", Orta Asya ve Kafkasya Bilgisi-Analiz Merkezi, http://www.coc.org/journal/cac092000/19.Mamedov.shtml (24.05.2010).

[19] Khoshbakht Yusifzade, q.o.ə.

[20] Brice M. Clagett, "Ownership of Seabed and Subsoil Resources in the Caspian Sea Under the Rules of International Law," Caspian Crossroads Magazine, Volume 1, issue 3, Fall 1995.

SSRİ daxilində də müəyyən bölgü, hətta neft və təbii qaz istehsalı və digər məsələlərlə bağlı praktika da mövcud idi. Amma hər halda SSRİ-nin dağılmasına qədərki mərhələdə Xəzərə dair bütün məqamları aydın tənzimləyən statusla bağlı xüsusi bir konvensiyanın olmaması bəzi dövlətlərin əlində bəhanə olmuş və Xəzərin statusu ciddi bir problemə çevrilmişdir. Xəzərin statusu probleminin həlli üçün Xəzəryanı dövlətlər arasında beştərəfli (bütün Xəzəryanı dövlətlərin iştirakı ilə), ikitərəfli və çoxtərəfli görüşlər keçirilmişdir. Status məsələsi eyni zamanda Xəzəryanı dövlətlər ilə regiondan kənar dövlətlər arasındakı görüşlərdə də da vaxtaşırı müzakirə mövzusuna çevrilmişdir. Xəzərin statusunun müəyyənləşdirilməsi ilə əlaqədar sahilyanı dövlətlər arasındakı ilk danışıqlar 1992-1993-cü illərdə baş tutmuş, müzakirələr tərəflər arasındakı ciddi fikir ayrılıqlarına görə nəticəsiz başa çatmışdır.[21]

Xəzərin statusuna dair mübahisələri alovlandıran amillərdən biri də Azərbaycan hökuməti ilə Qərb şirkətləri arasındakı danışıqlar prosesi olmuşdur. 1994-cü ilin əvvəllərində danışıqlar davam edərkən Xəzərin Azərbaycana aid bölgələrində neft-qaz araşdırmalarının davam etdirilməsindən narahat olan Rusiya, 28 aprel 1994-cü il tarixində bununla bağlı İngiltərəyə nota göndərmişdir.[22] İran da bənzər narahatlıqlar keçirmiş və sərt bənayatlar vermişdir. Ancaq 20 sentyabr 1994-cü il tarixində Azərbaycanla Qərb şirkətləri arasında Xəzərdə neft istehsalı ilə əlaqədar imzalanan müqaviləyə ("Əsrin Müqaviləsi" kimi də adlandırılır) Rusiya və İran neft şirkətlərinin cəlb edilməsi istiqamətində addımlar bu ölkələrin sərt mövqeyini bir qədər yumşaltmış və vəziyyəti Azərbaycan lehinə qismən də olsa dəyişdirən bir amil olmuşdur.[23]

Xəzərin statusu ilə bağlı ilk praktiki nəticə 11-12 noyabr 1996-cı il tarixlərində Aşqabadda keçirilən Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin iclasında əldə edilmişdir. İclasda Xəzərin hüquqi statusunun təsbit edilməsinin zəruriliyini və sahilyanı dövlətlər üçün mühüm əhəmiyyətini nəzərə alaraq, "Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın hazırlanması üzrə Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri səviyyəsində Xüsusi İşçi Qrupu" yaradılmışdır.[24] Bu işçi qrupun iclasları bəzən fasilələrlə, bəzən isə daha sıx keçirilmişdir. Məsələn, 2003-cü il ərzində dörd görüş keçirilmişdir (halbuki, 1996-cı ildən 2003-cü ilə qədər cəmi 7 iclas keçirilmişdir). Sonrakı illərdə işçi qrupunun iclasları dəyişən sıxlıqlarla davam etdirimişdir.

Xüsusi İşçi Qrupun iclaslarından əlavə Xəzəryanı dövlətlərin ekspertləri səviyyəsində də görüşlər keçirilir. Xəzərin hüququ statusunun müxtəlif istiqamətləri ilə bağlı ekspert qruplarının iclasları şəklindəki bu görüşlər Xüsusi İşçi Qrupun iclasları ilə müqayisədə daha sıx keçirilir. Keçən dövr ərzində Xüsusi İşçi Qrupu qədər tez-tez olmasa da Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin

[21] "Russian International Affairs, FBIS-SOV-95-188-S, 28 September 1995, s. 10-12"-dən nəql edən Araz Aslanlı, İlham Hesenov, Haydar Aliyev Dönemi Azerbaycan Dış Politikası, Ankara, Platin, 2005, s. 122; Cavad Şərifnejad, "Xəzər Dənizi və Hüquqi Statusu", http://az.arannews.com/mobile/?m_t=news&Type=News&TypeID=17&id=10820 (14.06.2014); Əli Həsənov, "Xəzərin hüquqi statusu məsələsi və Azərbaycanın geoiqtisadi maraqları", 525-ci qəzet, 14 noyabr 2010, Sayı 210, s. 12-13.

[22] Stephen Blank, Energy, Economics, and Security in Central Asia: Russia and Its Rivals, U.S. Army War College, Carlisle Barracks, March, 1995, http://www.strategicstudiesinstitute.army.mil/pdffiles/00114.pdf (14.06.2014);

[23] Rober V. Baryiski, "Russia the West and the Caspian Energy Mub", Middle East Journal, Volume 49, No: 2, Spring 1995, s. 224.

[24] "On Legal Status Of Caspian Sea", http://azembassy.qa/?options=content&id=22 (14.06.2014);

görüşləri də keçirilmişdir. Bu görüşlər adətən Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının Zirvə Görüşünə hazırlıq məqsədi daşımışdır. Xəzərin statusuna dair danışıqlar baxımından Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının Zirvə Görüşü (Xəzər Sammiti) də böyük əhəmiyyət daşıyır. İlk Xəzər Sammiti 23-24 Aprel 2002-ci il tarixlərdə Türkmənistanın paytaxtı Aşqabadda keçirilmişdir.[25]

Bu sammit daha çox gərginliklərlə (xüsusilə, Türkmənistan ilə Azərbaycan arasında) yadda qalmış, sammit zamanı ikinci sammitin 2003-cü ildə Tehranda keçirilməsi barədə qərar qəbul olunmuşdur. Lakin ikinci sammitin növbəti ildə keçirilməsi üçün göstərilən səylər bir müddət nəticə verməmişdir. Nəhayət ki, 2007-ci il oktyabrın 16-da Tehranda II Zirvə Toplantısı keçirilmişdir.[26] Toplantı çərçivəsində dövlət başçıları tərəfindən Birgə Bəyannamə imzalanmışdır. Bəyannamənin əvvəlində dövlət başçılarının "Xəzər dənizi regionunda geosiyasi və milli səviyyədə baş vermiş dəyişiklik və prosesləri, Xəzəryanı beş dövlət arasında mövcud razılaşmaları və bununla əlaqədar, Xəzər dənizinin hüquqi rejiminin təkmilləşdirilməsi və bu məqsədlə, Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın tezliklə qəbul edilməsi zərurətini nəzərə" aldıqları qeyd olunmuşdu.

Bu fikir və 9-cu maddədəki "Tərəflər bəyan edirlər ki, dəniz təkinin istifadə edilməsi məqsədi ilə Xəzər dənizinin dibinin bölünməsi ilə bağlı məsələlərin yekun razılaşdırılması onların suveren hüquqları nəzərə alınmaqla və bir-birinin qanuni maraqlarına hörmət etməklə həyata keçiriləcəkdir." fikri vəziyyətin Azərbaycan və Qazaxıstan lehinə qismən də olsa dəyişdiyinin göstəricisi kimi qəbul oluna bilər.

Xəzəryanı Ölkələrin Dövlət Başçılarının III Zirvə Görüşü Azərbaycan, Rusiya, Qazaxıstan, İran və Türkmənistan prezidentlərinin iştirakı ilə 18 noyabr 2010-cu ildə Bakıda keçirilmişdir.[27] Sammitdə Xəzərin statusu ilə bağlı ümumi bir sənəd imzalanmasa da, ölkə başçıları bu istiqamətdə işçi qrupları səviyyəsində fəal işlərin getməsindən razılıqlarını ifadə etmiş və yaxın gələcəkdə ciddi praktiki nəticələrin əldə olunacağı ilə bağlı bəyanatlar səsləndirmişlər.[28] Sammitdə Azərbaycan, Rusiya, Qazaxıstan, İran və Türkmənistan prezidentləri "Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında" saziş imzalamış və birgə bəyannamə qəbul etmişdir.[29]

Xəzəryanı Ölkələrin Dövlət Başçılarının VI Zirvə Görüşü Azərbaycan, Rusiya, Qazaxıstan, İran və Türkmənistan prezidentlərinin iştirakı ilə 29 sentyabr 2014-cü ildə Həştərxanda keçirilmişdir.[30] Bu görüşdə liderlər arasında birgə bəyanat və kommunike qəbul olunmuşdur. Birgə bəyanatda Xəzərin səthinin paylaşılmasına dair məqamların qeyd olunması birmənalı qarşılanmamışdır. Belə ki, bəyanata

---

[25] "В Ашхабаде открылось 21-е заседание Специальной рабочей группы по разработке проекта Конвенции о правовом статусе Каспийского моря", 23 aprel 2007, http://www.turkmenistan.ru/?page_id=3&lang_id=ru&elem_id=9887&type=event&sort=date_desc (11.06.2014)

[26] Hüseynbala Səlimov, "Növbəti Xəzər sammiti nə vəd edir?", 16 oktyabr 2007, http://www.azadliq.mobi/a/416735.html (14.06.2014);

[27] Anar Əkbərov, q.o.ə.

[28] Əli Həsənov, "Xəzərin hüquqi statusu məsələsi və Azərbaycanın geoiqtisadi maraqları", Fəlsəfə və Sosial-Siyasi Elmlər Jurnalı, Sayı 1 (31), Azərbaycan Fəlsəfə və Sosial-Siyasi Elmlər Assosiasiyası (AFSEA), s. 106

[29] "Agreement on Security Cooperation in the Caspian Sea has been submitted to the State Duma for ratification", July 21, 2011, http://eng.kremlin.ru/news/2617 (14.06.2014).

[30] "Заявление президентов Азербайджанской Республики, Исламской Республики Иран, Республики Казахстан, Российской Федерации и Туркменистана", http://news.kremlin.ru/ref_notes/4754 (30.09.2014)

əsasən Xəzərin sahilindən 15 mil məsafədə sahilyanı ölkələrin suverenlik hüquqları tanınır. Bioloji resursların hasilatına dair müstəsna hüquq isə cəmi 25 mil məsafədə keçərlidir. Xəzərin qalan su səthinin ümumi istifadədə olması nəzərdə tutulur. Bu, Xəzərin paylaşılması prinsipi ilə razılaşmayan dövlətlərin və Xəzərin orta xətt üzrə paylaşılmasını tələb edən dövlətlərin mövqeləri arasında orta yol xarakteri daşıyır.

Yuxarıda da qeyd edildiyi kimi Xəzərin statusuyla bağlı Xəzəryanı dövlətlər arasında fərqli formatlarda da müzakirələr aparılmış, hətta bunların nəticəsində bəzi sənədlər də imzalanmışdır. Rusiya ilə Qazaxıstan arasındakı danışıqlar 1997-ci ilin dekabrında başlamışdır. 1998-ci ilin yanvar ayında Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin Moskvaya səfəri zamanı bu mövzu da müzakirə edilmişdir. 9-10 fevral 1998-ci il tarixlərində Həştərxanda Rusiya və Qazaxıstan Xarici İşlər Nazirlərinin iştirakı ilə keçirilən zirvə görüşündə Rusiya yeni bir təklif irəli sürmüşdür.[31] Bu təklif Xəzərin səthinin və dibinin ayrı şəkildə paylaşılmasını nəzərdə tuturdu.

Təklifə görə Xəzərin dibi dövlətlər arasında "orta xətt" prinsipi ilə bölünəcək, Xəzərin bioloji varlıqları və suyun səthi isə "birgə mülkiyyət" kimi qiymətləndiriləcəkdi. Qazaxıstan bu təklifə müsbət yanaşmış, 6 iyul 1998-ci il tarixdə Moskvada iki ölkə arasında müqavilə imzalanmışdır. Bu sənəd eyni zamanda Xəzərin statusu mövzusunda sahilyanı dövlətlər arasında imzalanmış ilk rəsmi sənəd olmuşdur. 23 sentyabr 2002-ci il tarixdə Moskvada Rusiya ilə Azərbaycan arasında ikitərəfli və 14 may 2003-cü il tarixdə Almatıda bu üç ölkə arasında üçtərəfli razılaşmalar imzalanmışdır.

18-19 mart 1996-cı il tarixlərində Türkmənistan Prezidenti Saparmurat Niyazovun Azərbaycana rəsmi, 13 may 1996-cı il tarixində Azərbaycan Prezidenti Heydər Əliyevin Türkmənistana işgüzar səfəri zamanı Xəzərə dair məsələlər də müzakirə edilmişdir. Ancaq 1997-ci ilin dekabrında Tehranda keçirilən İslam Konfransı Təşkilatının (indiki İslam Əməkdaşlıq Təşkilatı) Sammitində Türkmənistan rəhbərliyi Azərbaycan tərəfinə "Sovet dövründən qaldığını" iddia etdikləri "dəniz sərhədlərinin delimitasiyası" xəritəsini təqdim edərək, "Əsrin Müqaviləsi" çərçivəsində xarici şirkətlərlə birgə işlədilən "Azəri" və "Çıraq" yataqlarının Azərbaycanın deyil, Türkmənistanın sektorunda olduğunu sübut etməyə çalışmış və müəyyən kompensasiya müqabilində bu yataqlara iddiadan əl çəkməyə hazır olduğunu bildirmişdir. Əsas iddia isə, Azərbaycan tərəfinin "Kəpəz", Türkmənistan tərəfinin isə "Sərdar" kimi adlandırdıqları yataq ilə bağlı olmuşdur. Bu iddia münasibətləri bir qədər gərginləşdirmiş, Azərbaycan və Türkmənistan prezidentləri iki ölkə arasındakı problemlərin həlli yollarının araşdırılması məqsədiylə birgə komissiya yaradılmasını qərara almışdır. Xəzər dənizinin orta xətt koordinatları üzrə ekspertlər qrupunun 2 iclası keçirilsə də anlaşmazlıqların artması fonunda görüşlər dayandırılmışdır.

Sonrakı illərdə də iki ölkə arasında aparılan danışıqlar "Kəpəz"in taleyinə heç bir aydınlıq gətirməmişdir. Hətta bir müddət diplomatik münasibətlərdə ciddi soyuqluq yaranmış və səfirlər geri çağrılmışdır. Türkmənistan prezidenti Niyazovun vəfatından və onun yerinə Qurbanqulu Berdiməhəmmədovun seçilməsindən sonra münasibətlər müəyyən dərəcədə istiləşmişdir. 2007-2009-cu

[31] Ömer Faruk Ünal, "Azerbaycan Rusya İlişkilerinde Hazar Sorunu", Journal of Qafqaz University, Volume II Number II 1999, s. 29.

illərdə iki ölkənin prezidentləri İlham Əliyev Qurbanqulu Berdiməhəmmədov arasında keçirilmiş görüşlər və danışıqlar ümumən münasibətlərə müsbət çalarlar gətirsə də, Xəzər dənizinə aid məsələlərdə ciddi irəliləyişlər əldə olunmamışdır.

## Tərəflərin Mövqeyi

Bu hissədə qısa və ümumi şəkildə Xəzəryanı dövlətlərin Xəzərin statusuna dair mövqelərinə toxunulacaqdır. Bu mövqelərdə Xəzərin sektorlara bölünməsi yoxsa birgə istifadəsi, əgər bölünəcəksə hansı prinsiplər əsasında bölünəcəyi və s. məsələlər üzrə fərqliliklər diqqət çəkmişdir.

### a) Rusiya

Rusiya, Xəzərin statusunun müəyyənləşməsi baxımından ən təsirli dövlət sayıla bilər. Bu ölkə Xəzərin statusuna dair siyasətini bir neçə dəfə dəyişdirmişdir. Rusiyanın 1993-1996-cı illər arasındakı mövqeyi, 10-12 millik sahil xəttindən kənardakı su kütləsinin və dənizin dibinin birgə istifadə edilməsi şəklində olmuşdur. Rusiya Xəzərin "açıq dəniz" statusuna tabe olmasına qarşıdır və bu çərçivədə "ərazi suları" və "xüsusi iqtisadi zona" kimi sahələrin müəyyənləşdirilməsinə də qarşı olmuşdur. Başqa bir ifadəylə, Rusiya 1982-ci il tarixli BMDHK-nın Xəzərin statusu ilə bağlı tətbiqinə qarşıdır. Bunu daxilindəki iki kanalın beynəlxalq hüququn subyekti olması (beləliklə Don-Volqa və Volqa-Baltik kanallarında beynəlxalq su yolu rejimi tətbiq olunmalı və Azərbaycan, Qazaxıstan və Türkmənistana bu kanallardan istifadə hüququ tanınmalıdır) və Xəzərin beynəlxalq müdaxiləyə açıq olması baxımından öz maraqlarına zidd hesab edir. Rusiya bu mövqeyinə əsas kimi 1921, 1935, 1940-cı ildə SSRİ ilə İran arasında imzalanan müqavilələri göstərir.

Sahilyanı ölkələrin Xarici İşlər Nazirlərinin 1996-cı ildəki görüşündə "45 mil" təklifini irəli sürən[32] Rusiya 1997-ci ildə əvvəlcə 12 mil (ərazi suları) + 20 mil (xüsusi iqtisadi zona) təklifi ilə çıxış etmiş, daha sonra 1997-ci ilin dekabrında Azərbaycanın nümunəsinə uyğun olaraq, Xəzərin ona məxsus milli sektorundakı neft-qaz yataqlarının öyrənilməsi və birgə işlənməsi haqqında beynəlxalq tender elan etmişdir. Rusiya 1998-ci ildən sonra dənizin dibinin bərabər uzaqlıq (orta xətt) prinsipi əsasında bölüşdürülməsini, su kütləsinin isə birgə istifadə edilməsini müdafiə etmişdir. Beləliklə Rusiya 1998-ci ildə qədər Xəzərin "ortaq su kütləsi" və ya "qapalı su hövzəsi" kimi dəyərləndirilməsini istəmiş, 1998-ci ildən sonra isə Azərbaycanın müdafiə etdiyi "sərhəd gölü" tezisinə yaxınlaşmışdır.

Rusiya 1998-ci ilə qədərki mövqeyində düşünürdü ki,

- İrana birbaşa çatmaq üçün tək yol olan dəniz yolunu qoruyacaq;
- Hərbi gücündən də istifadə edərək Orta Asiya respublikalarının Xəzər və Qafqaz üzərindən Qərb ilə (eləcə də Türkiyə ilə) iqtisadi-siyasi əlaqələr qurmasına (o cümlədən neft satışına) mane olacaq;

[32] Rüstəm Məmmədov, "Xəzər Dənizinin Geosiyasəti: 1995-1999-cu illərdə siyasət, diplomatiya və hüququn qarşılıqlı əlaqəsi", GEOSTRATEGİYA, 2011, Sayı: 6, http://elibrary.az/docs/jurnal-11/687.doc (14.06.2014);

- “Birgə istifadə” qaydası tətbiq olunduğu müddətcə Xəzərdən istifadədə sahilyanı dövlətlərin ortaq qərar vacib olacağı üçün Qazaxıstan və Türkmənistan neftinin və təbii qazının dənizin dibiylə (Trans Xəzər) Azərbaycan üzərindən Qərbə daşınmasına imkan verilməyəcək;
- Yeni sahilyanı dövlətlərin Xəzərdəki təbii ehtiyatlar hesabına güclü iqtisadiyyata malik olmalarına, beləliklə də iqtisadi baxımdan Rusiyadan müstəqil hala gəlmələrinə mane ola biləcək;

- Qərb dövlətlərinin bölgəyə böyük sərmayə qoyuluşları həyata keçirməsindən sonra, Rusiyanın bölgəyə müdaxiləsi çətinləşəcəyi üçün əvvəlcədən bu sərmayələrin qoyuluşuna mane ola biləcək;

- Eyni zamanda Xəzər hövzəsindəki təbii ehtiyatlardan daha çox pay ala biləcək.

Növbəti mərhələdə Rusiya Azərbaycan və Qazaxıstanın onun iradəsindən kənarda olsa belə xarici şirkətlərlə imzaladığı neft müqavilələrində yer almaq və bu iki ölkənin beynəlxalq bazarlara çıxaqmaq istədiyi neftin məhz onun ərazisindən keçməsini təmin etmək üçün bu iki ölkə ilə körpüləri tam yandırmamaq taktikasını seçmişdir. Bu da Rusiyanın mövqeyinin yumşalmasına səbəb olmuşdur. Digər tərəfdən 1998-ci ilə qədər gedən proseslər Rusiyanın "önləyici xarakterli addımları"nın elə də uğur gətirmədiyini göstərmiş və Rusiya Xəzərin statusuyla əlaqədar daha praqmatik bir siyasət izləməyə başlamışdır. Bunun nəticəsində də 1998-ci ildə Qazaxıstanla[33], 2002-ci ildə isə Azərbaycanla[34] müqavilələr imzalanmışdır.

Vladimir Putinin prezident seçilməsindən sonra Rusiya digər istiqamətlərdə olduğu kimi Xəzərlə bağlı da fəallığını artırmaya başlamışdır. Putin, prezident seçildikdən sonra Xəzərin Rusiyanın "xüsusi maraq dairəsində" olduğunu açıqlamış və keçmiş Enerji naziri Viktor Kalyujnini Xəzər Dənizinin hüquqi statusunun müəyyənləşdirilləsi prosesi üzrə xüsusi nümayəndə təyin etmişdir.[35] Kalyujninin təklifləri arasında yer alan "əgər dövlətlərdən biri Xəzərin statusuna dair müzakirələrdə nəticə əldə edilməsinə mane olsa, digər dövlətlər vaxt itirmədən addımlar atmalıdırlar" fikri İranı narahat edəcək xarakterdə olmuşdur."[36]

## b) İran

İran da Xəzər dənizinin sektorlara bölünməsinə güclü şəkildə qarşı çıxır. İran bunu dolayısı yolla Orta Asiya və Qafqaz regionlarında Qərbin, xüsusilə də ABŞ-ın təsir imkanlarının, eləcə də siyasi və hətta hərbi varlığının artmasının səbəbi hesab edir. Bu baxımdan 1990-cı illərin əvvəllərində İran üçün həllsizlik, elə İranın arzuladığı şəkildə həll olunma qədər dəyərli idi. Digər tərəfdən İran SSRİ-

---

[33] "Russia-Kazakhstan", http://www.rfembassy.kz/eng/lm/dvustoronnie_otnosheniya/rossiya-kazakhstan/ (14.06.2014); "Russia and Kazakhstan Sign Pact on Caspian Oil", http://www.nytimes.com/1998/07/07/world/world-news-briefs-russia-and-kazakhstan-sign-pact-on-caspian-oil.html (14.06.2014);

[34] "Russia and Azerbaijan Agree on Delimitation of Caspian Sea Floor", 25 September, 2002, http://english.pravda.ru/russia/politics/25-09-2002/1212-agreement-0/ (14.06.2014);

[35] Rustam Mammedov, "International Legal Status of the Caspian Sea: Issues of Theory and Practice", The Turkish Yearbook, Sayı 32, 2001, s. 246.

[36] Rustam Mammedov, "International Legal Status …, s. 247-248.

nin dağılması prosesini digər məqamlarla yanaşı həm də son iki əsrdir (güclü Çar Rusiyası və SSRİ qarşısında) Xəzərdə faktiki olaraq varlığının hiss olunmamasına son verə biləcək bir proses kimi də qiymətləndirirdi. İran düşünürdü ki, bu vəziyyəti aradan qaldırmaq üçün ortaya çıxmış tarixi fürsətdən öz lehinə yaxşı istifadə etməli, bunun üçün də Xəzərin statusu ilə bağlı İrana veto hüququ da tanıyan birgə istifadə prinsipi qəbul olunmalıdır.

1998-ci il tarixli Rusiya-Qazaxıstan müqaviləsindən sonra Xəzərlə bağlı siyasətində əsasən tək qalan (bəzi istiqamətlər üzrə Türkmənistan İranın tələbləri ilə oxşar tələblər irəli sürsə də Xəzərin birgə istifadəsi ilə bağlı İran tək qalmışdır) İran da mövqeyində tədricən bəzi dəyişikliklər etmişdir. Xəzərin statusu ilə bağlı 1998-ci ilin dekabrında Moskvada keçirilən görüşlərdə (Xüsusi İşçi Qrupunun iclasında) İran tərəfi əvvəlki mövqeyindən ciddi şəkildə fərqlənən yeni təklif irəli sürmüşdür. İclasda çıxış edən İranın Xarici işlər nazirinin müavini Murtaza Sermedi, İranın Xəzərin birgə istifadəsini arzuladığını, ancaq Xəzərin bütün istiqamətlər üzrə sahilyanı dövlətlər arasında hər bir dövlətə 20% pay verməklə paylaşılmasına da isti baxdığını qeyd etmişdir. 1998-ci ilin dekabrında İran Milli Neft Şirkəti (NIOC) Royal Dutch/Shell və British Lasmo ilə Xəzərin cənub sahillərindəki neft sahələrində (bunların bəzilərini Azərbaycan özünə aid hesab edir) kəşfiyyat işləri üçün müqavilə imzalamışdır.[37]

2000-ci ilin iyununda Tehranda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Zirvə Görüşündə isə İran Xəzərin statusu ilə əlaqədar olaraq, Xəzərin beş sahil dövləti arasında bərabər şəkildə bölünməsini təklif etmişdir. İran rəsmi mənbələrinin bir yandan Xəzərin sadəcə 14%-nin İrana aid olduğunu qeyd etdiyi halda (İran rəsmi mənbələrinə istinadən İran saytlarından birində yayınlanan məqalədə belə deyilir: "Hal-hazırda Xəzər sahillərinin 14% İran, 16% Rusiya, 20%Türkmənistan, 21% Azərbaycan və 29% Qazaxıstan tərəfindədir."), "İİR yeni regional şəraitin yaranması və yaxşı qonşuluq münasibətləri üsuluna əsasən yeni müqaviləni qəbul edir və yeganə şərti, Xəzərin yeni hüquqi statusunda İranın mənafeyinə riayət edilməsidir. İranın qənaətinə görə, yeni bölgüdə Xəzər dənizinin sahil sularının ən azı 20 faizi ixtiyarında olmalıdır." iddiası ilə çıxış etməsi maraqlı olmuşdur.[38]

2013-cü il yanvar ayının 17-də İranın şimalında yerləşən Mazandaran əyalətində əsasən Xəzərin hüquqi statusu məsələlərinə həsr olunmuş ikinci milli konfransda bildirilmişdir ki, İran parlamentində milli təhlükəsizlik və xarici əlaqələr komitəsinin üzvü Mehdi Sənayinin rəhbərliyi ilə Xəzərin hüquqi statusu ilə bağlı xüsusi işçi qrup yaradılmışdır.[39] Bu İranın məsələyə diqqətini daha da artırdığının göstərici kimi qiymətləndirilə bilər.

2014-cü ilin aprelində keçirilən Xəzəryanı ölkələrin Xarici İşlər Nazirlərinin görüşündən sonundakı mətbuat konfransında İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif bildirib ki, İranın Xəzərin statusu ilə bağlı mövqeyi dəyişməyib və

[37] Abbas Maleki, "What Happened in the South Caspian?", August 17, 2001, http://www.caspianstudies.com/article/A%20new%20look%20at%20south%20Caspian.htm (14.06.2014); John Roberts, "Energy reserves, pipeline routes and the legal regime in the Caspian Sea", http://books.sipri.org/files/books/SIPRI01Chufrin/SIPRI01Chufrin03.pdf (14.06.2014);
[38] "Xəzər Dənizinin Hüquqi Statusu", http://az.arannews.com/mobile/?m_t=news&Type=News&TypeID=17&id=4450 (14.06.2014);
[39] Məsiağa Məhəmmədi, İran İslam Respublikasına Dair Rüblük Hesabat Hesabat Yanvar-Mart 2013, SAM, http://sam.az/uploads/gallery/20.04/Iran%20Islam%20Respublikasi%20Yanvar-Mart.pdf (14.06.2014);

hesab edirik ki, belə dəyişikliyə ehtiyac da yoxdur. Onun sözlərinə görə, Tehran Xəzərdə sahilyanı dövlətlərdən başqa hər hansı ölkənin silahlı qüvvələrinin mövcudluğunu yolverilməz sayır: "Təəssüf ki, bəzi qeyri-regional oyunçular Xəzərə yalnız neft və qaz mənbəyi kimi baxır və ekologiyanı unudur. İran hesab edir ki, Xəzərlə bağlı məsələlərin həlli üçün hərtərəfli uzunmüddətli, kollektiv maraqları təmin edən addımlar atılmalıdır".[40]

İranın Xəzərin birgə istifadəsiylə bağlı mövqeyindəki gözləntiləri belə olmuşdur:

- İranın başlıca məqsədi Qərb güclərinin, xüsusilə də ABŞ-ın bölgəyə yerləşməsinə mane olmaqdır;

- Qərb dövlətlərin Xəzərdəki sərmayələrinin təhlükəsizliyini təminat altına almaq üçün atacaqları addımlar (bölgədə hərbi güc saxlamaq, əməkdaşlıq etdikləri sahilyanı dövlətləri hərbi ittifaqlara cəlb etmək və s.) İran tərəfindən ciddi təhlükə kimi qiymətləndirilməkdədir;

- İran tarixin heç bir dövründə, Rusiya və SSRİ qarşısında, Xəzərdə əhəmiyyətli dərəcədə varlıq göstərə bilməmişdir. SSRİ-nin dağılmasından sonra ortaya fürsət çıxdığını düşünmüşdür;

- İran, Qazaxıstan və Türkmənistanın neft və təbii qazını beynəlxalq bazarlara məhz onun ərazisindən keçəcək boru xətləri ilə çıxarmalarını istəyir. Xəzərin milli sektorlara bölünməsi, bu cür kəmərlərin Xəzərin dibiylə Azərbaycan üzərindən keçməsinə imkan yarada bilər. Buna mane olmaq üçün tək hüquqi yol İranın Xəzərlə bağlı veto hüququnu əldə etməsidir;

- Bölgədəki Türk Respublikaları arasında əməkdaşlıq nəticəsində meydana gələ biləcək güclü birlik, İranın regional hədəfləri ilə uyğun gəlmir;

- İran hazırda (və çox güman ki, yaxın gələcəkdə də) özünə müttəfiq kimi gördüyü Rusiya ilə birbaşa ünsiyyət təmin edə biləcəyi tək yola məhz Xəzər üzərindən malikdir. İrana sanksiyaların çox sərt olduğu, bütün həyati və strateji sahələri əhatə etdiyi dövrlərdə Rusiyanın sadəcə Xəzər vasitəsiylə bu sanksiyaları rahat şəkildə pozmaq imkanı mövcud olur. Xəzərin sektorlara bölünməsi bu imkanı ortadan qaldıra bilər.

### c) Azərbaycan

Xəzərin statusu problemi, Azərbaycan xarici siyasətindəki iki ən vacib istiqamətdən biridir. Xüsusilə Azərbaycanın Qərb şirkətləri ilə neft razılaşmalarını imzaladığı mərhələlərdə status problemi Azərbaycanın qarşılaşdığı ən böyük maneələrdən biri olmuşdur. Çünki status problemi bəzən razılaşmaların imzalanmasını çətinləşdirmiş və hətta bəzi xarici şirkətləri neft yataqlarının işlənməsi prosesindən çəkindirmişdir.

[40] Rasim Musabəyov, "Xəzər Status Qazanmağa Yaxındır?", 29.04.2014, http://regionplus.az/az/articles/view/2244 (14.06.2014); "Iran FM urges lasting peace in Caspian Sea", http://www.presstv.ir/detail/2014/04/22/359639/iran-urges-lasting-peace-in-caspian-sea/ (14.06.2014);

Azərbaycan tərəfi Xəzərin statusu ilə bağlı "milli sektolar" tezisini ardıcıl olaraq müdafiə etmiş və bunun iki yolla ola biləcəyi düşünülmüşdür. Azərbaycanın mövqeyinə görə Xəzər ya "sərhəd gölü" kimi qiymətləndirilərək orta xətt prinsipi ilə bölünməli, ya da "açıq dəniz" kimi qiymətləndirilməli və Xəzərə 16 Noyabr 1994-cü il tarixdə qüvvəyə minən 1982-ci il tarixli BMDHK-nın müddəaları tətbiq olunmalıdır. Xəzər "sərhəd gölü" kimi qiymətləndirilərək orta xətt prinsipi ilə bölündüyü təqdirdə hər bir dövlət sahil xəttinə uyğun şəkildə milli sektorlara sahib olmalıdır. Azərbaycanın Xəzərin bir "sərhəd gölü" olaraq qiymətləndirilməsi və sahilyanı dövlətlər arasında bütün istiqamətlər üzrə suveren hüquqlar tanınacaq şəkildə sektorlara bölünməsi tezisi öz bölgəsində zəngin neft və təbii qaz ehtiyatları olan Qazaxıstan tərəfindən də dəstəklənib.

Azərbaycan bu mövqeyini əsaslandırmaq üçün dünyanın digər bölgələrindən nümunələr göstərmişdir. Əsərin əvvəlində də qeyd edildiyi kimi çox sayıda göl sahilyanı dövlətlər arasında bu qayda ilə paylaşılmışdır. Əslində Xəzərə dair təxminən 100 illik təcrübə də onun sektorlara bölünməsinə daha yaxındır. Azərbaycanın başqa bir təklifi olan Xəzərə BMDHK-nın tətbiqi isə hər bir sahilyanı dövlətə 12 mil ərazi sularına və 200 mil xüsusi iqtisadi zonaya sahib olmaq hüququ verir. Rusiya və İran təbii olaraq buna da qarşı çıxmışdır.

9 noyabr 1995-ci il tarixdə referendumla qəbul edilən Azərbaycan Konstitusiyasının 12-ci maddəsində Azərbaycanın əraziləri sayılarkən "Xəzərin Azərbaycan sektoru" ifadəsinə də yer verilmişdir.[41] Beləliklə, Azərbaycan Xəzərdə ona aid milli sektor olduğunu öz konstitusiyası ilə təsbit və beləcə hüquqi iddia ilə də çıxış etmişdir. 14 dekabr 1998-ci il tarixdə Azərbaycan Xarici İşlər Nazirliyinin verdiyi bəyanatda "hər bir müstəqil Xəzəryanı dövlətin öz milli sektorundakı təbii ehtiyatlardan istifadə hüququ olduğu" qeyd edilmiş və "Xəzərdə hərəkət və ovçuluq ilə bağlı məqamları tənzimləyən 1921 və 1940-cı il tarixli müqavilələrin Xəzərin mineral ehtiyatları ilə bağlı mövzulara toxunmadığı" vurğulanmışdır.[42]

2014-cü ilin aprelində keçirilən Xəzəryanı ölkələrin Xarici İşlər Nazirlərinin görüşündən sonundakı mətbuat konfransında Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Xəzərin hüquqi statusunun razılaşdırılması sahəsində ciddi irəliləyiş olduğunu vurğulayıb. Məmmədyarov buradakı çıxışında iki məqamı xüsusi vurğulayıb. Bunlardan biri bəzi dövlətlərin hərbi güc nümayişinə qarşı olmuşdur. Məmmədyarov Xəzəryanı dövlətlər üçün Xəzər dənizindən digər dənizlərə və dünya okeanına tranzit azadlığının vacibliyini vurğulayaraq daxili sularında Xəzəryanı ölkələrin gəmilərinin hərəkətlərinə məhdudiyyətlər yaradan Rusiyaya, eləcə də bu ölkə ilə bir yerdə Transxəzər layihəsinə qarşı çıxan İrana da mesaj vermişdir.[43]

[41] "Azərbaycan Respublikasının Konstitusiyası", http://president.az/azerbaijan/constitution/ (21.06.2014);
[42] Mahmoud Ghafouri, "The Caspian Sea: Rivalry and Cooperation", Middle East Policy, Cilt 15, Sayı 2, Yaz 2008, s. 87.
[43] Rasim Musabəyov, q.o.ə.

Ümumilikdə götürsək, Azərbaycan Xəzərin "sərhəd gölü" olduğunu və milli sektorlara bölünməsini irəli sürür. Azərbaycanın mövqeyinə görə;

- Xəzər beynəlxalq sərhəd gölüdür;
- Xəzər bütün istiqamətlər (hava sahəsi, dənizin səthi, dərinliyi, dibi və altı) üzrə orta xətt prinsipi ilə milli sektorlara bölünməlidir;
- Xəzərin milli sektorlara bölünməsi keçmiş SSRİ-nin iş praktikasına və o zamankı (1970-ci ildə qəbul olunmuş) bölgüyə əsaslanmışdır. Belə ki, Astara-Həsənqulu xəttinin cənubu İrana aiddir. Bu xəttin şimalı isə SSRİ respublikaları arasında paylaşılmışdır;
- Belə bölgü artıq mövcud olduğundan Xəzəryanı dövlətlər statusu müəyyənləşdirməzdən əvvəl öz milli sektorunda işə başlaya bilərlər.

## d) Türkmənistan

Xəzərin statusuna dair müzakirələr boyunca Türkmənistan tərəfi də sabit bir mövqeyə malik olmamışdır. Türkmənistan ilk illərdə Azərbaycan və Qazaxıstan kimi, Xəzərin sektorlara bölünməsi tezisini müdafiə etmişdir. Hətta, 1993-cü ildə Xəzərin şərq sahillərində yerləşən "Çeleken" yatağı ilə bağlı xarici şirkətlərlə müqavilə imzalamışdır.[44] 1996-cı ildə isə, Türkmənistan Xəzərin 45 millik milli sektorlara bölünməsi və digər hissələrin sahilyanı dövlətlər tərəfindən birgə istifadəsi ideyasını dəstəkləmişdir. Bu yanaşma prinsip etibarilə Rusiyanın mövqeyinə yaxın olmuşdur. Ancaq daha sonra Türkmənistanın bu mövqedən də uzaqlaşmağa başlamışdır.

Bir müddət (1998-ci ilin Fevralına qədər) Xəzərin "orta xətt" prinsipi ilə bölünməsini müdafiə etmiş, hətta Azərbaycan ilə bu prinsiplə bağlı razılığa da gəlmişdir.[45] Amma orta xəttin haradan keçəcəyi ilə bağlı fikir ayrılığı bu iki ölkə arasında ziddiyyəti kəskinləşdirmişdir (Azərbaycan, orta xəttin hesablanması üçün onun tərəfindən başlanğıc nöqtəsinin Abşeron yarımadasının və Çilov adasının götürülməsini istəyir, Türkmənistan isə bununla razılaşmır). Bu gərginlik fonunda 1997-ci ilin yanvarında Azərbaycanın "Əsrin Müqaviləsi" çərçivəsində xarici şirkətlərlə işlətdiyi "Azəri" və "Çıraq" neft yataqlarının Türkmənistana aid olduğu iddia edilmiş və bu yataqların adları dəyişdirilərək ona Türkmənbaşının adı qoyulmuşdur.

Türkmənistanın prezidenti Saparmurad Niyazovun 6-9 iyul 1998-ci il tarixli İran səfəri zamanı, 8 İyul 1998-ci il tarixdə iki ölkə prezidentinin birgə bəyanatında Rusiya ilə Qazaxıstan arasındakı razılaşma tənqid olunmuş və Xəzərin statusuna dair bütün sahilyanı dövlətlərin qəbul etdiyi bir sənəd imzalana qədər SSRİ-İran müqavilələrinin qüvvədə olduğu qeyd edilmişdir.[46] Bundan öncə Türkmənistan Xarici İşlər Nazirinin müavini Yolbars Kepbanov tərəfindən "Journal Of

---

[44] Ali Granmayeh, "Legal History of the Caspian Sea", Shirin Akiner, q.o.ə., s. 16-17.
[45] Shamkhal Abilov, "Hazar'in Hukuki Statüsü", Hazar Raporu, Yaz 2013, s. 57.
[46] "Hazar'da Kavga Kızıştı", Radikal (Türkiyədə yayınlanan qəzet), 9 iyul 1998.

International Affairs" üçün yazılan məqalədə də oxşar tezislər gündəmə gətirilmişdi.[47]

Göründüyü kimi Rusiya, Qazaxıstan və Azərbaycan arasında razılaşmalar əldə edilərkən Türkmənistan mövqeyini İrana yaxınlaşdırmağa çalışmışdır. Bunda görünür həm Türkmənistanın tək qalmamaq istəyi, həm də İranın beynəlxalq bazarlara (xüsusilə Türkiyəyə) çıxış üçün alternativ kimi qiymətləndirilməsi də ciddi rol oynamışdır. Amma, İran ilə yaxınlaşmaq Türkmənistana xüsusilə öz təbii qazını Türkiyə bazarlarına və buradan Avropaya nəql etmək üçün boru kəməri çəkmək imkanı verməmişdir. İran sadəcə daxili istehlak üçün Türkmən qazını almış və Türkiyə öz qazını satmışdır.

Saparmurat Niyazovun vəfatından sonra Türkmənistan prezidenti seçilən Qurbanqulu Berdiməhəmmədov Azərbaycan ilə münasibətlərinin yaxşılaşması fonunda Xəzərin statusuna dair müzakirələrdə daha rasional mövqe nümayiş etdirməyə başlamışdır. Amma 2009-cu ildə Türkmənistanın atdığı bəzi addımlar gərginliyin artması kimi qiymətləndirilmişdir. Belə ki, Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədov Xəzərdəki mübahisəli yataqlarla bağlı Azərbaycanın iddialarını və xarici neft-qaz şirkətlərinin onların kəşfiyyatı və işlənməsində iştirakının qanuniliyini öyrənmək üçün nüfuzlu beynəlxalq ekspertlərə, yüksək səviyyəli hüquqşünaslara müraciət etmək, sonra isə hazırlanmış sənədləri Beynəlxalq Arbitraj Məhkəməsinə göndərmək barədə tapşırıq vermişdir.[48]

Bundan əlavə Prezident Qurbanqulu Berdiməhəmmədov Türkmənistan Dövlət Təhlükəsizlik Şurasının geniş iclasında ölkədə qısa müddət ərzində Xəzərdə Müdafiə Nazirliyi və Sərhəd Xidmətinin hərbi dəniz bazasının yaradılması barədə göstəriş vermişdir. Həmin ərəfədə Türkmənistanın Xarici İşlər Nazirliyi də Xəzərin bölüşdürülməsi ilə bağlı rəsmi mövqeyi açıqlayıb.[49] Burada qeyd olunub ki, Türkmənistan sahilyanı ölkələr arasında dənizin dibinin konkret hissələrində onların hüquqlarını müəyyənləşdirən razılaşma imzalanmadan birtərəfli şəkildə işlərin görülməsinə qarşıdır.

Türkmənistan Xəzərin orta xətt prinsipi ilə bölünməsini müdafiə edir. Dünya təcrübəsində orta xəttin "xüsusi vəziyyətlər" nəzərə alınmaqla müəyyənləşdirilməsi təcrübəsi də var. Məhz bu "xüsusi vəziyyətlər" 1982-ci il tarixli BMDHK-nın tətbiqinə bəzi əngəllər yaradır. Bu amili nəzərə alan Aşqabad hesab edir ki, Xəzərin Türkmənistanla Azərbaycan arasında bölünməsi zamanı Abşeron yarımadası və Çilov adası nəzərə alınmamalıdır. Türkmənistan XİN-i bildirir ki, məhz Abşeron yarımadası və Çilov adası Xəzərdə "xüsusi vəziyyət" yaratdığından Azərbaycan orta xəttin müəyyənləşdirilməsində bu iddiasından əl çəkməlidir.

Yeri gəlmişkən, Azərbaycan Türkmənistan ilə mübahisəli olan "Kəpəz" ("Sərdar") yatağının birgə işlənməsinə dair təklif irəli sürmüşdür ki, əksər ekspertlər bu variantı sadəcə kompromis variant kimi yox, həm də Türkmənistan üçün sərfəli variant kimi qiymətləndirirlər. Belə ki, bu yataq birgə işlədildiyi halda istehsal

---

[47] Yolbars A. Kepbanov, q.o.ə.
[48] "Turkmenistan willing to continue negotiations with Azerbaijan", 10 July 2012, http://news.az/articles/politics/64064 (21.06.2014).
[49] "Turkmen Foreign Ministry publicizes its concept on Caspian delimitation – text of statement", 4 August 2009, http://m.trend.az/en/capital/energy/1516900.html (21.06.2014).

olunan karbohidrogen ehtiyatının Azərbaycanın yaxınlıqda yerləşən boru xətti infrastrukru ilə (Azəri-Çıraq-Günəşli) nəqli mümkün ola bilər. Bu, həm texniki və hüquqi problemlərin, həm maliyyə xərclərinin azalması deməkdir.

Ümumilikdə qeyd etmək mümkündür ki, Türkmənistanın Xəzərin statusu ilə bağlı mövqeyində həlledici amil Azərbaycan ilə mübahisəli olan yataqlardır. Əgər bu mübahisələr olmasaydı xüsusilə Transxəzər ilə bağlı Azərbaycan ilə əməkdaşlığa böyük əhəmiyyət verən Türkmənistan yəqin ki, status müzakirələrində Qazaxıstan və Azərbaycan ilə çoxdan razılığa gəlmişdi.

### e) Qazaxıstan

Xəzərin statusu ilə bağlı 1998-ci ilin fevralına qədər Azərbaycan ilə bənzər mövqeyi paylaşan Qazaxıstan da Azərbaycan kimi, Xəzərin milli sektorlara bölünməsini müdafiə etmiş və "ortaq mülkiyyət" ideyasına şübhə ilə yanaşmışdır. Qazaxıstan, bu çərçivədə Xəzərin "daxili dəniz" kimi dəyərləndirilməsini və 1982-ci il tarixli BMDHK-nın müddəalarının Xəzərə tətbiq olunmasını istəmişdir və Qazaxıstan Xarici İşlər Nazirliyinin rəsmi internet saytında "Xəzər Dənizinin Hüquqi Statusu" adlı materialda bu mövqe xüsusi vurğulanmaqdadır.[50] Qazaxıstan Rusiya və Azərbaycan ilə imzaladığı ikitərəfli və üçtərəfli sənədlərə böyük əhəmiyyət verir, Xəzərə dair beştərəfli müzakirələrlə yanaşı digər formatlarda müzakirələri də vacib hesab edir. Qazaxıstan mənbələrində Xəzər üçün "Xəzər dənizi" ifadəsinin israrla istifadə edilməsi diqqəti cəlb edir.

Bir daha qeyd edək ki, Xəzər "orta xətt" prinsipi ilə sektorlara bölünəcəyi təqdirdə ən çox paya malik olan ölkə Qazaxıstan olduğuna görə, "ortaq mülkiyyət" ideyasının tətbiqindən də ən çox zərəri bu ölkə görəcəkdir. 1998-ci ildə Xəzərə dair Rusiya ilə müqavilə imzalayan Qazaxıstan sadəcə dənizin dibinin sektorlara (orta xətt prinsipi ilə) bölünməsini, dənizin səthindən isə birgə istifadə olunmasını müdafiə etmişdir. Hazırda Xəzərdəki qonşuları ilə problemi olmadığı və Xəzərə dair digər dövlətlərə hansısa bir status diktə etmək niyyəti (hegemonluq iddiası) olmadığı üçün Qazaxıstan status müzakirələrinin alovlu iştirakçısı deyil.

2014-cü ilin aprelində keçirilən Xəzəryanı ölkələrin Xarici İşlər Nazirlərinin görüşündən sonundakı mətbuat konfransında Qazaxıstan Xarici İşlər Naziri Erlan İdrisov, Xəzər regionunda sülh, sabitlik və əməkdaşlığın əhəmiyyətini vurğulamış, Xəzərin özünəməxsusluğunu qeyd edərək, problemlərin həllinə bu çərçivədə yol tapılmasının vacibliyini qeyd etmişdir.[51]

[50] "Legal Status of Caspian Sea", http://www.mfa.kz/index.php/en/foreign-policy/current-issues-of-kazakhstan-s-foreign-policy/legal-status-of-caspian-sea (21.06.2014).
[51] "Caspian Foreign Ministers Discuss Summit Preparations", http://www.astanatimes.com/2014/04/caspian-foreign-ministers-discuss-summit-preparations/ (21.06.2014).

## İmzalanmış Hüquqi Sənədlər

SSRİ-nin dağılmasından dərhal sonra sahilyanı dövlətlər arasında Xəzərlə bağlı sənədlərin imzalanması istiqamətində səylər başlamışdır. Xəzərin Statusu Haqqında Konvensiya ilə bağlı razılıq indiyə qədər əldə olunmasa da Xəzərin paylaşılmasına dair bəzi dövlətlər arasında ikitərəfli və üçtərəfli müqavilələr imzalanmışdır. Bundan əlavə sahilyanı dövlətlər tərəfindən imzalanan sənədlər də olmuşdur. Bunlar Xəzərin ekologiyasının qorunması ilə bağlı sənədlərdir.

16 sentyabr 1996-cı il tarixində Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin Bakıya səfəri zamanı Azərbaycanın Prezidenti Heydər Əliyev ilə Nazarbayev arasında Xəzər dənizinin hüquqi statusu, dənizin mineral və bioloji ehtiyatlarının kəşfiyyatı, işlənməsi və istifadə edilməsində xəzəryanı dövlətlərin əməkdaşlığına dair məsələlər geniş müzakirə edilərək "Xəzər dənizi məsələləri üzrə Birgə Bəyanat" imzalanmışdır.[52]

Xəzərin paylaşılması ilə bağlı ilk sənəd Rusiya ilə Qazaxıstan arasında imzalanmışdır. 6 iyul 1998-ci il tarixdə imzalanan "Qazaxıstan Respublikası və Rusiya Federasiyası arasında dəniz dibinin təkinin istifadəsinə suveren hüquqların həyata keçirilməsi məqsədilə Xəzər dənizinin şimal hissəsinin dibinin bölünməsi haqqında Saziş"ə[53] əlavə olaraq 13 may 2002-ci il tarixli Protokol da imzalanmışdır.[54]

9 yanvar 2001-ci il tarixində Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana səfəri zamanı Putin ilə Azərbaycan Prezidenti Heydər Əliyev arasında Xəzərin statusu ilə bağlı birgə bəyanat imzalanmışdır.[55] Bu birgə bəyanatda həm Rusiyanın, həm də Azərbaycanın əhəmiyyət verdiyi məqamlar bərabər şəkildə qeyd edilmişdir. Bu sənəd ilə Rusiya tərəfi bir daha "orta xətt prinsipi ilə bölgünü qəbul və digər dövlətlərə (İran və Türkmənistan) də təklif etmiş olurdu. 29 noyabr 2001-ci il tarixində Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında Xəzər dənizinin dibinin bölünməsi haqqında Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında saziş, 27 fevral 2003-cü il tarixdə isə ona əlavə protokol imzalanmışdır.[56]

Azərbaycan Prezidenti Heydər Əliyevin 23-24 sentyabr 2002-ci il tarixlərdə reallaşdırdığı Rusiya səfərinin ilk günündə "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi

---

[52] "Xəzər dənizi məsələləri üzrə Birgə Bəyanat", http://ardda.gov.az/NewSite/wp-content/uploads/2012/07/Xezer-denizi-meseleleri-Birge-Beyanat.pdf (21.06.2014).
[53] "Соглашение Между Российской Федерацией И Республикой Казахстан О Разграничении Дна Северной Части Каспийского Моря В Целях Осуществления Суверенных Прав На Недропользование", http://www.mid.ru/BDOMP/spd_md.nsf/0/E6CFB56134DEF6FF44257D27001D45C3# (21.06.2014).
[54] "Протокол К Соглашению Между Российской Федерацией И Республикой Казахстан О Разграничении Дна Северной Части Каспийского Моря В Целях Осуществления Суверенных Прав На Недропользование От 6 Июля 1998 г.", http://archive.kremlin.ru/text/docs/2002/05/30236.shtml (21.06.2014).
[55] "Azərbaycan – Rusiya münasibətləri", http://www.mfa.gov.az/files/file/Az%C9%99rbaycan%20-%20Rusiya.pdf (24.06.2014).
[56] "Xəzər Dənizinin Hüquqi Statusuna Dair Arayış", http://www.azerbaijan.az/_WorldCommunity/_CaspianStatus/caspianStatus_03_a.html (24.06.2014).

haqqında saziş" imzalanmışdır.[57] 14 may 2003-cü il tarixində isə "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölgü xətlərinin kəsişmə nöqtəsi haqqında saziş" imzalanmışdır.[58]

Azərbaycan Respublikası Prezident Admnistrasiyasının İctimai-Siyasi Şöbəsinin müdiri Əli Həsənova görə bu "üçtərəfli sazişə görə, orta xətt üzrə Xəzərin dibinin 18,7 faizi Rusiyanın, 19,5 faizi Azərbaycanın, 29,6 faizi isə Qazaxıstanın nəzarətində qaldı. Qeyd edək ki, orta xətt prinsipini qəbul etməyən digər hövzə dövlətləri olan İranın payı bu bölgü üzrə 13,8%, Türkmənistanınkı isə 18,4% təşkil edir."[59] 4 noyabr 2003-cü il tarixdə Tehranda Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası imzalanmışdır.[60] Bu konvensiya çərçivəsində (konvensiyanın 22-ci maddəsində nəzərdə tutulur) "Tərəflər Konfransı" adlı qurum və konvensiyanın katibliyi təsis edilmişdir.

24-25 yanvar 2005-ci il tarixində Aşqabad şəhərində "Xəzər dənizinin dəniz mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası"nın "Xəzər dənizinin quruda yerləşən mənbələrdən və quruda aparılan fəaliyyətlərdən çirklənməsindən mühafizə olunması haqqında Protokol" layihəsinin hazırlanması üzrə Xəzəryanı dövlətlərin birinci görüşü keçirilmişdir. 2011-ci il avqustun 12-də Aktau şəhərində "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasının "Neftlə çirklənmə halları ilə mübarizədə regional hazırlıq, cavab tədbirləri və əməkdaşlıq haqqında" protokolu[61], 2012-ci il dekabrın 12-də Moskva şəhərində isə "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasının Xəzər dənizinin quruda yerləşən mənbələrdən və quruda həyata keçirilən fəaliyyət nəticəsində çirklənmədən mühafizəsi haqqında" protokolu imzalanmışdır.[62]

Yuxarıda da qeyd olunduğu kimi 2010-cu il noyabrın 18-də Bakıda keçirilən III Xəzər Sammiti zamanı Azərbaycan, Rusiya, Qazaxıstan, İran və Türkmənistan prezidentləri "Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında" saziş imzalamışdır.[63] Sazişin giriş hissəsində qeyd olunmuşdur ki, tərəflər bu sənədi beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən BMT Nizamnaməsində təsbit edilən müstəqillik, suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, güc tətbiq etməmək, başqalarının işinə qarışmamaq kimi prinsiplərinə əsaslanaraq qəbul etmişdir. Sazişin 1-ci maddəsində qeyd olunmuşdur ki, Xəzər dənizində təhlükəsizliyin təmin olunması Xəzəryanı dövlətlərin müstəsna

[57] "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, http://www.e-qanun.az/files/framework/data/2/f_2031.htm (24.06.2014).
[58] "Xəzər Dənizinin Hüquqi Statusuna Dair Arayış",...
[59] Əli Həsənov, "Xəzərin hüquqi statusu məsələsi…", s. 93
[60] "Conference of the Plenipotentiaries", http://www.tehranconvention.org/spip.php?article33
[61] "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasının Neftlə çirklənmə halları ilə mübarizədə regional hazırlıq, cavab tədbirləri və əməkdaşlıq haqqında" Protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, 07 fevral 2013, http://www.president.az/articles/7234 (24.06.2014).
[62] "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasının Xəzər dənizinin quruda yerləşən mənbələrdən və quruda həyata keçirilən fəaliyyət nəticəsində çirklənmədən mühafizəsi haqqında" Protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, 02 aprel 2014, http://president.az/articles/11306 (24.06.2014).
[63] "Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu", 16 fevral 2011, http://www.president.az/articles/1602 (24.06.2014).

hüququdur. Sazişdə o da qeyd olunur ki, "bu müqavilədə heç nə Xəzərin hüquqi statusunu müəyyən etmir".[64]

## Yekun Qənaət

Beləliklə Xəzərin statusu məsələsi hələ də tam həll edilməmiş qalır. İstər dəniz, istər göl kimi qiymətləndirilsin, Xəzərin statusu probleminin tam həlli üçün sahilyanı dövlətlərin hamısının iştirakı ilə razılığın əldə olunması vacibdir. Xəzərin statusu probleminin həlli ilə bağlı indiyə qədər irəli sürülmüş təklifləri belə ümumiləşdirmək olar:

1) Rusiya və İran sahilyanı dövlətlərin Xəzərdən birgə istifadəsini;

2) Azərbaycan ya Xəzərə BMDHK-nın tətbiqini ya da Xəzərin "orta xətt" prinsipi ilə milli sektorlara bölünməsini;

3) İran və Türkmənistan Xəzərin sahilyanı dövlətlər arasında 5 bərabər milli sektora bölünməsini;

4) Rusiya və İran Xəzəryanı ölkələrə ərazi suları və xüsusi iqtisadi zona üçün müəyyən (Rusiya və İran tərəfinin təklif etdiyi rəqəmlər bir qədər fərqli olub, 32-45 mil arasında dəyişmişdir) bir hissənin verilməsini, qalan hissənin birgə istifadə üçün qalmasını müdafiə etmişdir.

Hazırda praktiki baxımdan Rusiya, Qazaxıstan və Azərbaycan arasında ikitərəfli və üçtərəfli müqavilələr mövcud olduğuna görə problem Türkmənistan və İran ilə razılığın əldə edilməsiylə bağlı qalır. Amma bu iki dövlətin problemləri tam eyni deyil. Türkmənistanın problemi Azərbaycan ilə mübahisəli yataqlardır. İran isə ümumiyyətlə Xəzərin statusu probleminin ya ona Xəzərlə bağlı qərarlarda veto hüququ verəcək şəkildə həll edilməsini ya da həllsiz qalmasını arzulamışdır.

Bununla da Xəzərdə onun maraqlarına zidd iqtisadi, siyasi, hərbi proseslərin qarşısını ala biləcəyini düşünmüşdür. Amma proseslər İranın bu niyyətinə çata bilmədiyini göstərmişdir. İran sadəcə öz sularına yaxın bəzi ərazilərdə Azərbaycanın neft istehsalına mane ola bilmiş və Transxəzər layihəsi ilə bağlı Rusiya ilə birgə müxalifətini digər məqamlarla yanaşı həm də status probleminin davam etməsi ilə əsaslandırmağa çalışmışdır.

İranın sonrakı mərhələlərdə təklif etdiyi Xəzərin sahilyanı dövlətlər arasında bərabər şəkildə (hər bir dövlətə 20%-lik hissə çatacaq şəkildə) paylaşılması iddiasının isə heç bir hüquqi əsası yoxdur və sadəcə xəritəyə nəzər salaraq bunun praktiki cəhətdən mümkün olmadığını görmək mümkündür. İranın bu təklifi haradasa mövcud olan bir əmlakın bölünməsindən söhbət getsəydi belə mübahisəli olardı. Ancaq söhbət milli sektorları və beləliklə həm də sərhədləri

[64] "Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş", http://ardda.gov.az/NewSite/wp-content/uploads/2012/07/Xezer-denizinde-tehlukesizlik-sahesinde-emekdashliq-Sazish.pdf (24.06.2014).

müəyyənləşdirməkdən gedirsə, mütləq bərabər bölgü necə həyata keçirilə bilər, bu aydın deyil.

Azərbaycanın müdafiə etdiyi "orta xətt" prinsipi ilə bölgünün tətbiqi baxımından da müəyyən problemlər mövcuddur. Sahil xəttinin dövlətin qurudakı ərazisindən yoxsa adalarından hesablanacağı, Azərbaycanın timsalında hətta qurudakı ərazidən hesablansa belə Abşeron yarımadasının uc nöqtəsindən hesablanmaya Türkmənistanın etirazı problem kimi qalır. Digər tərəfdən Xəzərdə suyun səviyyəsinin dəyişməsinin orta xəttə təsiri problemi də mövcuddur.

## Transxəzər

Transxəzər mövzusu Xəzərin statusu ilə müqayisədə daha yeni mövzudur və Xəzərin statusu qədər çox müzakirə edilməmişdir. Mövzu SSRİ-nin dağılmasından sonrakı mərhələdə gündəmə gəlmiş, xüsusilə son illərdə Avropanın enerji təhlükəsizliyi baxımından Xəzərin əhəmiyyətinin artması fonunda daha sıx müzakirə edilməyə başlanmışdır.

Son illərdə Transxəzər dedikdə daha çox Xəzərin dibi ilə Türkmənistandan Azərbaycana çəkilməsi planlaşdırılan təbii qaz boru kəməri nəzərdə tutulsa da, bu hissədə Transxəzər mövzusuna dair müxtəlif istiqamətləri əhatə edən təkliflərə, planlara, atılan konkret addımlara toxunulacaqdır. Transxəzər əməkdaşlığı ən geniş mənada Xəzərin sahilində yerləşən dövlətlər arasında Xəzər üzərindən həyata keçirilən əməkdaşlığın bütün sahələrini əhatə edir.

Siyasi və iqtisadi əhəmiyyəti etibariylə neftin və təbii qazın Xəzər vasitəsiylə nəqli ilə bağlı əməkdaşlıq daha çox müzakirə mövzusu olsa da, Transxəzər əməkdaşlığın nəqliyyat, transport, fiberoptik kabel kimi istiqamətləri də mövcuddur. Eyni şəkildə Transxəzər əməkdaşlığı sadəcə Xəzərin şərq sahillərindən qərb sahillərinə doğru deyil, qərb sahillərindən şərq sahillərinə doğru enerjidaşıyıcılar və digər istiqamətlərlə bağlı transportu da əhatə edir.

Əvvəlcə, Transxəzər əməkdaşlığının zəruriliyini şərtləndirən amillərə qısaca toxunaq. SSRİ dağıldıqdan sonra keçmiş Sovet Respublikalarının (Moskvadan) müstəqilliklərinin möhkəmləndirilməsi mövzusu bu respublikaların özləri üçün həyati, bəzi kənar dövlətlər üçün isə əhəmiyyətli maraqlar arasında yer alırdı. Bunun üçün digər istiqamətlərdəki fəaliyyətlərlə yanaşı Xəzərin şərq və qərb tərəfindəki yeni dövlətlər arasında əməkdaşlığın gücləndirilməsi də zəruri idi. Bu əməkdaşlıq yeni dövlətlərin xüsusilə "qədim və hegemonluq iddiası olan qonşuları"nın növbəti iddialarına müqavimət göstərə bilmələrinə imkan verəcəkdi. Amma xüsusilə Rusiya qarşısında iqtisadi-siyasi müstəqilliyin gücləndirilməsi prosesinin, İranın ya da Çinin təsir dairəsinə girilmədən edilməsi bu dövlətlərdən daha çox Qərb üçün əhəmiyyətli idi.

Transxəzər əməkdaşlığının zəruriliyini şərtləndirən xüsusi amillərdən biri Xəzəryanı ölkələrin malik olduqları neft və təbii qaz ehtiyatları ilə bağlı idi. Xəzərin şərq sahilindəki dövlətlərin (Qazaxıstan və Türkmənistan ilə yanaşı həm də Özbəkistanın) öz təbii ehtiyatlarını şimal və cənubdan müstəqil şəkildə dünya bazarlarına çıxara bilmələrinin ikitərəfli əhəmiyyəti olacaqdı. Beləliklə, həm Orta Asiya Respublikaları yuxarıda da qeyd oluduğu kimi, iqtisadi müstəqilliklərini

möhkəmləndirəcəklərdi, həm də bu proses Qərbin (Avropanın, İsrailin və s.) enerji təhlükəsizliyi baxımından da faydalı olacaqdı.

Yeri gəlmişkən qeyd edək ki, Xəzərin şərq və qərb sahilləri Avropanın enerji təhlükəsizliyində oynayacaqları rol baxımından bir-birinin mövqeyini gücləndirirlər. Məsələn, Azərbaycan təbii ehtiyatlarının Avropa bazarlarına çıxarılması mövzusu hər dəfə gündəmə gələndə gələcəkdə digər Xəzəryanı ölkələrin təbii ehtiyatlarının buna əlavə edilməsi ilə daha ciddi potensialın ortaya çıxacağı qeyd olunur. Ya da Xəzərin şərq sahilərinin təbii ehtiyatlarının Qərb ölkələrinə nəqli gündəmə gələndə qeyd olunur ki, onsuz da Xəzərin qərbindən-Azərbaycandan Avropa bazarlarına doğru hazır infrasturktur mövcuddur və s.

Transxəzər əməkdaşlığı eyni zamanda Qərbin Cənubi Qafqaz üzərindən Xəzərin şərqinə rahat yol tapması deməkdir. Bu Qərb üçün həm siyasi, həm təhlükəsizlik, həm də iqtisadi mənada əhəmiyyətli idi. Qərbi maraqlandıran məqamlardan biri də Xəzərin şərqindəki təbii ehtiyatların Rusiya və İrandan kənar tək alternativ kimi Çinə yönəlməməsidir. Qərbə rəqib kimi mövqeyini gücləndirən Çinin Xəzərdəki təbii ehtiyatları özünə asanlıqla cəlb etməsi onun enerji probleminin həllini asanlaşdıran, amma eyni zamanda Qərbin enerji təhlükəsizliyi üçün sıxıntı yaradan məqamdır. Transxəzər əməkdaşlığı buna da mane ola bilər.

## Transxəzər Neft Boru Kəməri

Transxəzər əməkdaşlığının ən vacib istiqamətini Xəzərin şərq sahillərindəki dövlətlərə aid neftin və təbii qazın Xəzər vasitəsiylə Azərbaycana, buradan isə Qərb bazarlarına nəql olunması təşkil etmişdir. Xəzərin şərqindəki dövlətlərdən Qazaxıstan 1990-cı illərin əvvəllərindən etibarən istehsal etdiyi neftin beynəlxalq bazarlara nəqlində alternativ yollara sahib olmaq taktikasını seçmiş, bu neftin bir hissəsini Azərbaycan vasitəsiylə beynəlxalq bazarlara nəql etməkdə maraqlı olmuşdur.

Bu məqsədlə, Tengiz yatağında istehsal olunan neftin bir hissəsi Qazaxıstan ilə Azərbaycan arasında imzalanmış müqavilələr çərçivəsində tankerlərlə Azərbaycana, buradan isə əvvəlcə dəmir yolu ilə, daha sonra isə həm dəmiryolu, həm də boru kəməri ilə Gürcüstana daşınmış və buradan beynəlxalq bazarlara nəql edilmişdir.[65]

Hələ 18 fevral 1997-ci il tarixində ARDNŞ-nin vitse-prezidenti İlham Əliyev ABŞ-da keçirdiyi mətbuat konfransında həmin il üçün 1.5 milyon ton Qazaxıstan neftini nəql etməyi planlaşdırdıqlarını açıqlamışdı.[66] ARDNŞ-nin vitse-prezidenti İlham Əliyev 19 noyabr 1998-ci il tarixdə ABŞ-da keçirdiyi görüşlərdə də Transxəzər neft boru kəməri mövzusuna toxunmuş, Qazaxıstanın Azərbaycan vasitəsiylə nəql olunan neftinin və neft məhsullarının həcmi 10 milyon tona

[65] 1996-cı il sentyabrın 16-da Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Azərbaycana rəsmi zamanı iki ölkə arasında digər sənədlərlə yanaşı neft qaz sənayesi sahəsində əməkdaşlıq haqqında saziş, Xəzər dənizi məsələləri üzrə Birgə Bəyannamə imzalanmışdır. 1997-ci il iyunun 10-11-də Prezident Heydər Əliyevin Qazaxıstana rəsmi səfəri zamanı iki ölkə arasında digər sənədlərlə yanaşı neftin beynəlxalq bazarlara nəql olunması uzrə əməkdaşlıq haqqında memorandum, neft maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında saziş imzalanmışdır. Daha geniş məlumat üçün baxın: "Azərbaycan - Qazaxıstan münasibətləri", http://lib.aliyev-heritage.org/az/549420.html (24.06.2014).
[66] "Press Conference with Ilham Aliyev and Terry Adams", Azerbaijan International, 5.1, Spring 1997.

çatdığı zaman iki ölkə arasında Transxəzər boru kəmərinin tikintisinə başlanılacağı ilə bağlı müqavilə imzalandığını açıqlamışdır.[67]

Bu arada 29 oktyabr 1998-ci il tarixində imzalanan Ankara Bəyannaməsi Transxəzər əməkdaşlığı baxımından xüsusi vurğulanmalıdır. Azərbaycan Prezidenti Heydər Əliyev, Türkiyə Prezidenti Süleyman Dəmirəl və Baş nazir Məsud Yılmaz, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Özbəkistan Prezidenti İslam Kərimov və ABŞ-ın Enerji naziri Bill Riçardson (şahid qismində) tərəfindən imzalanan bəyannamədə tərəflər Trans Qafqaz və Trans Xəzər boru kəmərlərinin çəkilməsinin çox əhəmiyyətli olduğunu qeyd etmişdilər.[68]

Neftin nəqli ilə bağlı Transxəzər əməkdaşlığı istiqamətində növbəti addım 1999-cü ildə, ATƏT-in İstanbul Sammitində atılmışdır. 1999-cu ilin noyabrındakı Sammit zamanı ABŞ-ın şahidliyi ilə (ABŞ Prezidenti Bill Klintonun şəxsən iştirakı ilə) Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan liderləri tərəfindən neftin nəqli ilə bağlı bir neçə sənəd imzalanmışdır ki, onlar arasında Transxəzər ilə bağlı müqavilə də var idi.

2005-ci ildən etibarən Qazaxıstanın BTC-yə qoşulmasıyla bağlı daha konkret addımlar atılmağa başlanmışdır. 2005-ci ilin əvvəllərində Qazaxıstan neftinin istehsalı və daşınması prosesində ən əhəmiyyətli şirkətlərdən biri olan Chevron Texaco şirkətinin rəsmiləri istehsal etdikləri nefti beynəlxalq bazarlara BTC ilə daşımaq istədiklərini açıqlamışdır. Bənzər açıqlama Qazaxıstana aid nəhəng Kaşagan sahəsində neft çıxaran Total, Eni, Inpex və Conoco Phillips şirkətlərinin rəsmiləri tərəfindən də verilmişdir. 31 mart 2005-ci il tarixində Qazaxıstanın Baş naziri Danyal Əhmədov, Qazaxıstanın BTC boru kəmərinə qoşulacağını da vurğulamaq məqsədi ilə BTC-nin gələcəkdə Aktau-Bakı-Tbilisi-Ceyhan olaraq adlandırılması ideyasını irəli sürmüşdür.

18-19 aprel 2005-ci il tarixlərində isə Bakıda Azərbaycan və Qazaxıstan rəsmiləri arasında, Qazaxıstan neftinin BTC ilə daşınmasını təmin edəcək Aktau-Bakı xətti barədə danışıqlar keçirilmiş və rəsmi açıqlamalara görə hətta tariflər də daxil olmaqla bir çox əhəmiyyətli mövzuda razılıq əldə olunmuşdur. Azərbaycan Prezidenti İlham Əliyevin 14 sentyabr 2005-ci il tarixli sərəncamı ilə Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri (BTC) ilə daşınmasının reallaşdırılması ilə bağlı xüsusi komissiya yaradılmışdır. 2006-cı il aprel ayının sonlarında Bakıda keçirilən Azərbaycan-Qazaxıstan Hökumətlərarası Birgə Komissiyasının iclasında mövzu yenidən dəyərləndirilmiş, texniki detallar haqqında əlavə görüş keçirilmişdir.[69]
16 iyun 2006-cı ildə Azərbaycan Prezidenti İlham Əliyev ilə Qazaxıstan Prezidenti Nursultan Nazarbayev arasında Qazaxıstanın BTC-yə qoşulmasına dair müqavilə imzalanmışdır.[70] Transxəzər sistemi ilə bağlı ilk dövlətlərarası sənəd də hesab oluna biləcək müqavilənin giriş hissəsində tərəflərin "BTC sisteminin və

[67] "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, millət vəkili İlham Əliyev 1998-ci ilin noyabrında ABŞ-da rəsmi səfərdə olmuşdur", http://files.preslib.az/site/oil/gl1.pdf (24.06.2014), s. 10
[68] "Kronoloji", http://www.btc.com.tr/proje.html (24.06.2014).
[69] "Danial Axmetov: Yaxın vaxtlarda Qazaxıstan BTC-yə qoşula bilər", http://az.trend.az/capital/energy/823525.html, 6 Mayıs 2006, (09.11.2011)
[70] "Kazakhstan Squeezes In On BTC Pipeline Project", June 16, 2006, http://www.rferl.org/content/article/1069229.html (24.06.2014); "Turkey's Energy Strategy", http://ec.europa.eu/enlargement/pdf/european_energy_policy/turkeys_energy_strategy_en.pdf (24.06.2014).

Transxəzər sisteminin iki ayrı sistem olduğunu və birlikdə enerji daşıyıcılarının nəqli üçün vahid dəhliz təşkil etdiklərini və neftin Qazaxıstan Respublikasından beynəlxalq bazarlara nəqlinə şərait yaradılmasına imkan verəcəklərini" nəzərə aldıqları də qeyd olunmuşdur.[71]

8 avqust 2007-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana rəsmi səfəri çərçivəsində ARDNŞ və «Kazmunayqaz» arasında «Neft-qaz sahəsində strateji əməkdaşlıq üzrə Razılaşma» və «Transxəzər layihəsinin birgə reallaşdırması üzrə Memorandum» imzalanmışdır.[72] 23 oktyabr 2008-ci il tarixində Qazaxıstanın "KazMunayQaz" Milli Neft-Qaz Şirkəti tərəfindən "KMG-Transcaspian" Limited Şirkəti yaradılmışdır.[73]

14 noyabr 2008-ci il tarixində Bakıda ARDNŞ ilə Qazaxıstanın "KazMunayQaz" şirkəti arasında Transxəzər layihəsinin reallaşdırılmasının əsas prinsipləri haqqında saziş imzalanmışdır. Sənəd Transxəzər layihəsinin birgə reallaşdırılmasının əsas şərt və prinsiplərini, «Kazmunayqaz» və ARDNŞ tərəfindən layihə üzrə birgə şirkətinin yaradılmasını, yaradılan güclərin maliyyələşdirilməsini, tariflərin təyin edilməsini, istifadə şərtlərini və Transxəzər sisteminin mərhələli inkişafını müəyyən edir.[74]

2009-cu il oktyabrın 2-də Naxçıvanda Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin iştirakı ilə iki ölkə arasında imzalanan sənədlər arasında "Qazaxıstanın karbohidrogen yataqlarının işlənməsi zamanı Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin neft-qaz infrastrukturunun obyektlərinin birgə istifadəsi haqqında Memorandum", "Transxəzər layihəsi üzrə texniki-iqtisadi əsaslandırmanın işlənib hazırlanması ilə əlaqədar birgə fəaliyyət haqqında müqavilə"ni, "KazMunayQaz" Milli Şirkəti Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında Bakı-Qara dəniz neft kəməri üzrə əməkdaşlığa dair Niyyət Memorandumu" da olmuşdur.[75]

Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev 29 sentyabr 2011-ci il tarixində verdiyi açıqlamada Transxəzər neft kəmərinin inşasının zəruriliyini qeyd etmiş, amma bunun daha çox Qazaxıstandan asılı olduğunu bildirmişdir.[76] Qeyd edək ki, Rusiyanın sərt müxalif mövqeyi ucbatından Aktau-Bakı neft boru xətti (Trans Xəzər) hələ reallaşmasa da, bu mövzu da vaxtaşırı olaraq gündəmə gətirilir. Amma hazırda Qazaxıstan nefti "Transxəzər layihəsi" çərçivəsində

---

[71] Müqavilənin tam mətni üçün baxın: "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və Bakı-Tbilisi-Ceyhan sistemi vasitəsilə Azərbaycan Respublikasının ərazisi ilə beynəlxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu", http://www.e-qanun.az/files/framework/data/12/f_12022.htm (24.06.2014).

[72] ""КазМунайГаз" и ГНКАР договариваются о совместной реализации Транскаспийского проекта", http://1news.az/economy/20070808114716618.html (24.06.2014).; "Еще один шаг на пути к реализации Транскаспийского проекта", http://www.investkz.com/articles/1708.html (24.06.2014).; "Azərbaycanla Qazaxıstan arasında Transxəzər Nəqletmə Sisteminin yaradılmasına dair sənəd imzalanıb", http://az.apa.az/news/138326 (24.06.2014).

[73] "Main", http://www.kmg-tc.kz/ (24.06.2014).

[74] "НК «КазМунайГаз» и ГНКАР подписали Соглашение об основных принципах реализации Транскаспийского проекта", http://www.investkz.com/articles/4925.html (24.06.2014).

[75] "Azərbaycan - Qazaxıstan münasibətləri", http://lib.aliyev-heritage.org/az/549420.html (24.06.2014).

[76] "Azərbaycan daşımaq üçün Xəzərin şərqindən 20 milyon tona qədər neft qəbul edə bilər", http://az.trend.az/capital/energy/1938275.html (24.06.2014).; "Natiq Əliyev: «Azərbaycan hazırda ildə 20 mln. ton Qazaxıstan neftinin tranzitini təmin etməyə hazırdır»", http://az.apa.az/news/236123 (24.06.2014).

tankerlərlə Azərbaycana, Azərbaycandan BTC ilə, Bakı-Supsa ilə və dəmiryolu ilə beynəlxalq bazarlara daşınır.

Transxəzər neft əməkdaşlığının digər istiqamətini Türkmənistan neftinin Azərbaycan vasitəsiylə beynəlxalq bazarlara nəql edilməsi təşkil edir. Türkmənistan neftinin BTC ilə daşınmasını nəzərdə tutan razılaşma 2010-cu ilin iyulunda imzalanmışdır. Qazaxıstan qədər olmasa da Türkmənistan da istehsal etdiyi neftin əhəmiyyətli bir hissəsini BTC ilə nəql edir. Neft istehsalını getdikcə artıran Türkmənistan, hətta neftini və neft məhsullarını daşımaq məqsədiylə son illərdə bir neçə yeni gəmi də satın almışdır.

## Transxəzər Təbii Qaz Boru Kəməri

Transxəzər enerji əməkdaşlığının digər istiqamətini təbii qazın (xüsusilə də Türkmənistan təbii qazının) Xəzər vasitəsiylə Azərbaycana, buradan isə Qərb bazarlarına nəqli mövzusu təşkil edir. Əslində bu mövzunun əsasını SSRİ-nin dağılmasından dərhal sonrakı mərhələdə Türkmənistan təbii qazının Türkiyəyə çatdırılması ideyası təşkil etmişdir. Türkiyə ilə Türkmənistan arasında təbii qaz və neft sahəsi üzrə əməkdaşlığın təməli hələ 7 noyabr 1990-cı il tarixində Aşqabadda "Türkiyə Cumhuriyəti Hökuməti ilə Türkmənistan SSR Hökuməti Arasında İqtisadi, Ticari, Elmi və Mədəni Əməkdaşlıq Protokolu" ilə qoyulmuşdur. Protokolun 2-ci maddəsində tərəflərin əməkdaşlıq edəcəkləri sahələr arasında təbii qaz sənayesi və neft sənayesi sektorları da sayılmışdır.[77]

Türkiyə ilə Türkmənistan arasında 3 dekabr 1991-ci il tarixində Ankarada imzalanan "İqtisadi və Ticari Əməkdaşlığa Dair Müqavilə"nin 5-ci maddəsində də tərəflərin digər sahələrlə yanaşı neft, təbii qaz, mədən və enerji ehtiyatlarının axtarışı sahələrində əməkdaşlıq edəcəkləri qeyd olunmuşdur.[78] Bu müqaviləyə dair anlaşma memorandumunun 3-cü maddəsində isə konkret olaraq Türkmənistandan Türkiyəyə təbii qazın satışı ilə bağlı imkanların araşdırılması nəzərdə tutulmuşdur.[79] İki ölkə arasında enerji sektorunu da əhatə edən növbəti sənəd 1 may 1992-ci il tarixdə Aşqabadda prezidentlər arasında imzalanmışdır. Türkiyə ilə Türkmənistan Arasında Türkmənistandan Türkiyəyə Təbii Qazın Göndərilməsi Haqqında Müqavilədə göndəriləməsi planlaşdırılan qazın həcmi ilə bağlı heç nə qeyd olunmamışdır. Sadəcə olaraq 1-ci və 4-cü maddələrdə müqavilənin 30 il müddətinə imzalandığı bildirilmişdir.[80]

13 fevral 1996-cı il tarixində Türkmənistan Prezidenti Saparmurad Niyazovun Türkiyəyə rəsmi səfəri zamanı təbii qaz satışına dair detalları əhatə edən protokol imzalanmışdır. Protokola əsasən Türkiyə Türkmənistandan 1998-ci ildə 2 milyard kubmetr təbii qaz satın almağa başlayacaq, bu rəqəm 2010-cu ildə illik 15 milyard kubmetrə qədər yüksələcəkdi.[81] İki ölkə arasında təbii qazın satışı ilə bağlı müzakirələr və sənədləşmələr davam etdikcə Transxəzər ideyası da

---

[77] Resmi Gazete (Türkiyədə qanunların və rəsmi qərarların yayınaldığı dövlət qəzeti) , 28 yanvar 1991, Sayı: 20769

[78] Resmi Gazete, 9 yanvar 1992 , Sayı: 21106

[79] Resmi Gazete, 25 yanvar 1992, Sayı: 21122

[80] Resmi Gazete, 16 oktyabr 1992, Sayı: 21377

[81] Abdülhamit Bilici, "Pacta Sunt Servanda", http://www.aksiyon.com.tr/aksiyon/newsDetail_openPrintPage.action?newsId=3699 (27.06.2014).

möhkəmlənmişdir. 1998-ci ildə Türkiyə və Türkmənistan dövlət başçıları tərəfindən bu layihənin həyata keçirilməsinə dair Çərçivə Sazişi imzalanmışdır. Sazişə görə; 30 milyard m³ Türkmənistan qazının 16 milyard m³-i Türkiyəyə, 14 milyard m³-i isə Avropaya nəql olunacaqdı. 21 may 1999-cu ildə, BOTAŞ ilə və "Türkmənistan karbohidrogen ehtiyatların istifadəsi üzrə Türkmənistan Prezidenti Yanında Səlahiyyətli Orqan" arasında, 16 milyard m³ təbii qazın satışı ilə bağlı 30 illik müqavilə imzalanmışdır.[82]

Beləliklə, Transxəzər təbii qaz layihəsi ilk növbədə Türkmənistanın Türkiyəyə təbii qaz satışı ilə bağlı olaraq gündəmə gəlmişdir. Ancaq bir çoxlarına görə layihənin gündəmdə qalmasının əsas səbəbkarı ABŞ olmuşdur. Təsadüfi deyildir ki, Türkmənistan Prezidenti Saparmurad Niyazovun 21-23 aprel 1998-ci il tarixlərində ABŞ-a işgüzar səfəri zamanı Transxəzər təbii qaz kəməri məsələsi Niyazovun ABŞ Prezidenti Bill Klinton və vitse-prezident Albert Qor ilə görüşlərində yüksək səviyyədə müzakirə mövzusu olmuşdur.[83]

19 fevral 1999-cu ildə Aşqabadda Transxəzər qaz kəməri layihəsinə dair Türkmənistan hökuməti ilə PGS konsorsiumu arasında müqavilə imzalanmışdır.[84] Həmin müqaviləyə həmçinin ABŞ prezidentinin və dövlət katibinin Xəzər regionunun enerji məsələləri üzrə müşaviri Riçard Morninqstar da imza atmışdır. 1999-cu ilin əvvəlində artıq texniki-iqtisadi əsaslandırılmış layihə mövcud idi və Transxəzər kəmərinin 28 ay müddətində həm Türkmənistan, həm də sualtı hissəsinin tikilməsini başa çatdırmaq nəzərdə tutulurdu.

Bütün bu sənədlərə baxmayaraq müxtəlif siyasi və ticari səbəblər, eyni zamanda, Türkiyənin və Qərbin tam istəkli olmaması ucbatından bu hələki baş tutmamışdır. Rusiya və İranın Transxəzər kəmərinə sərt müqavimət göstərmələri hətta PSG konsorsiumunun nəticə əldə etməsinə ciddi mane olmuşdur. Xüsusilə Vladimir Putin hakimiyyətə gəldikdən sonra Rusiyanın artan fəallığı və gücü qarşısında bu layihə ilə bağlı fəallıq azalmışdır. 2000-ci ilin ortalarında PSG konsorsiumu ləğv edilmişdir. Eyni zamanda, İran özünün daxili tələbatını ödəmək üçün Türkmənistandan qaz idxal etmiş və Türkiyəyə öz qazını satmışdır.[85]

2006-cı ilin yanvarında Rusiya-Ukrayna münasibətlərindəki gərginlik fonunda yaranan "qaz böhranı" və Rusiyanın təbii qazdan xarici siyasətdə təzyiq vasitəsi kimi istifadə etdiyinə dair güclənən fikirlər Transxəzər təbii qaz layihəsini də aktuallaşdırmışdır. 11 yanvar 2006-cı ildə Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Qazaxıstanın Prezidenti Nursultan Nazarbayevin andiçmə mərasimində iştirak etmək üçün Qazaxıstana işgüzar səfər etmişdir. Səfər zamanı Artur Rasi-zadə Qazaxıstanın Baş naziri Danial Ahmedov ilə Qazaxıstanın istehsal

---

[82] "Hazar Geçişli Türkmenistan-Türkiye-Avrupa DGBH Projesi", http://www.botas.gov.tr/icerik/tur/projeler/yurtdisi.asp (27.06.2014).
**[83]** "Joint Statement on United States-Turkmenistan Relations, April 23 1998", http://www.gpo.gov/fdsys/pkg/PPP-1998-book1/html/PPP-1998-book1-doc-pg607.htm(27.06.2014).**; "**Visits to the U.S. by Foreign Heads of State and Government-1998", http://2001-2009.state.gov/r/pa/ho/15731.htm (27.06.2014).
[84] "PSG International Secures Lead Role In Us$2.5 Billion Transcaspian Pipeline Project", http://www.bechtel.com/1999-02-19.html (27.06.2014); "Turkmenistan-Turkey Pipeline Contract Signed", http://www.jamestown.org/single/?tx_ttnews%5Btt_news%5D=15345&tx_ttnews%5BbackPid%5D=213&no_cache=1#.U-u3u-N_uWk (27.06.2014).
[85] "Azərbaycan-Türkmənistan-Türkiyənin Enerji Münasibətlərinin Uzlaşdırılması - Trans-Xəzər Boru Kəmərinin Vəziyyəti", http://eunews.az/energy/20131219010120251.html, 19 Dekabr 2013.

etdiyi təbii qazın Bakı-Tbilisi-Ərzurum kəməri ilə nəqli məsələsini də müzakirə etmişdir.[86]

2006-cı ilin martında Türkmənistan Prezidenti Saparmurat Niyazov Transxəzər təbii qaz boru kəməri ilə bağlı danışıqların yenidən başlaya biləcəyi barədə açıqlama vermişdir.[87] Bu mərhələdə Avropanın enerji təhlükəsizliyinin təmininə yönəlmiş layihələr Transxəzər təbii qaz boru kəmərinin mövqeyini gücləndirici, Xəzərin şərq sahillərindən şimal, cənub və şərq istiqamətlərdə çəkilən boru kəmərləri isə Transxəzər təbii qaz boru kəmərinin mövqeyini zəiflədən xarakterə malik olmuşdur. Məsələn, 12 may 2007-ci il tarixində Rusiya, Qazaxıstan və Türkmənistan arasında Mərkəzi Asiya-Mərkəz qaz boru kəməri sistemi ilə bağlı müqavilə imzalanmışdır.

Müqavilə Mərkəzi Asiya təbii qazının Avropaya Rusiya vasitəsiylə ixracının təminini nəzərdə tuturdu.[88] Amma Qərbə doğru çəkilməsi planlaşdırılan Nabucco və digər kəmərlərə dair layihələr Transxəzər ideyasının canlı qalmasına kömək etmişdir. Transxəzər təbii qaz kəməri ilə bağlı ən əhəmiyyətli addımlardan biri 7 sentyabr 2011-ci il tarixində Aİ Enerji Komissarı Günter Ottinger tərəfindən Avropa İttifaqı Şurasına "Avropa İttifaqının xarici energetika əlaqələri" adlı sənədin təqdim edilməsi olmuşdur. Bu sənəddə qitənin enerji təhlükəsizliyinin reallaşması üçün zəruri olan əsas irimiqyaslı layihələr arasında Transxəzər qaz kəməri sistemi xüsusi qeyd edilmişdir. Sənəddə vurğulanmışdır ki, AB, Azərbaycan və Türkmənistan arasında qaz kəmərinə dair nəzərdə tutulan saziş Türkmənistan təbii qazının Xəzər dənizindən keçməklə nəqlini təmin edəcək infrastrukturun tikintisinin əsasını qoymuş olacaqdır.[89]

12 sentyabr 2011-ci il tarixdə Avropa İttifaqı Şurası tərəfindən Avropa Komissiyasına Transxəzər qaz kəmərinin hüquqi bazasına dair Azərbaycan və Türkmənistanla danışıqlar aparmaq üçün mandat verildiyi açıqlanmışdır.[90] Aİ-nin bu qərarı Transxəzərə dair müzakirələri və mübahisələri yenidən alovlandırmış, tərəflər sürətlə və daha az ehtiyatla məsələyə dair mövqelərini bildirmişdir. Gözlənildiyi kimi Rusiya Aİ-nin bu qərarına rəsmi açıqlamayla etirazını bildirmişdir. Türkmənistan Xarici İşlər Nazirliyi isə ölkənin enerji sektoru üzrə Aİ ilə yaxınlaşmasına Rusiyanın rəsmi strukturlarının mövqeyinin anlaşılmaz olduğunu bəyan etmişdir.

İranın Rusiyadakı səfirliyinin açıqlamasında "İran Rusiyanın Transxəzər boru kəməri layihəsinə mənfi münasibətini bölüşür" ifadələrinə yer verilmişdir. İran tərəfi Rusiya və İranın birlikdə Avropa İttifaqının Transxəzər boru kəmərinin

---

[86] Ilham Shaban, "The US Government Commences Lobbying Trans Caspian Pipeline Of This Project", Azerbaijan Today, http://www.azerbaijantoday.az/ARCHIVE/16/economics4.html (27.06.2014).
[87] Vladimir Socor, "Azerbaijan Spearheading Initiative On Trans-Caspian Gas Pipeline", Eurasia Daily Monitor Volume: 3 Issue: 62, March 30, 2006, http://www.jamestown.org/single/?tx_ttnews%5Btt_news%5D=31531&no_cache=1#.U-yG1-N_uWk (27.06.2014); "Vice Pres: Iran best path for transferring Caspian Sea oil and gas", http://www.irna.ir/en/NewsPrint.aspx?ID=80453934 (27.06.2014).
[88] "Putin seals Caspian gas pipeline deal", http://www.washingtontimes.com/news/2007/may/12/20070512-105654-9131r/?page=all (27.06.2014).
[89] "On security of energy supply and international cooperation - "The EU Energy Policy: Engaging with Partners beyond Our Borders", http://register.consilium.europa.eu/doc/srv?l=EN&f=ST%2013941%202011%20INIT (27.06.2014).
[90] "EU starts negotiations on Caspian pipeline to bring gas to Europe", http://europa.eu/rapid/press-release_IP-11-1023_en.htm?locale=en (27.06.2014).

tikintisinə dair Azərbaycan və Türkmənistanla danışıqlara başlamaq barədə qərarı ilə razı olmadığını, Aİ-nin qərarının ekoloji maraqlara və Xəzərin statusuna dair müzakirələrə zərər verdiyini iddia etmişdir. 21 sentyabr 2011-ci il tarixdə açıqlama verən Aİ-nin Azərbaycandakı nümayəndəliyin rəhbəri Rolann Kobia isə, Rusiya və İran tərəfinin layihənin ekoloji tərəfləri ilə bağlı narahatçılığının tam əsassız olduğunu qeyd etmişdir. O, müxtəlif dənizlərin dibi ilə minlərlə kilometr boyunca kəmərlər çəkildiyini qeyd edərək, Rusiya tərəfindən ya da onun da iştirakı ilə çəkilən "Şimal axını", "Mavi axın", "Cənub axını"nı bunlara misal kimi göstərmişdir. Aİ-yə dəstək verən ABŞ-ın Azərbaycandakı səfiri Metyu Brayza 28 sentyabr 2011-ci il tarixli açıqlamasında Transxəzər layihəsinin yalnız Azərbaycanla Türkmənistandan asılı olduğunu, başqa heç kəsin buna müdaxilə edə bilməyəcəyini vurğulamışdır. Brayza Transxəzər kəmərinin tikintisinin ABŞ-ın strateji məqsədlərinə xidmət etdiyini və ABŞ-nın bu layihəyə tam dəstək verdiyini də qeyd etmişdir.

Aİ-nin Enerji Komissarı Günter Ottingerin Astanada keçirilən "KAZENERGY" VI Avrasiya Forumunun açılışındakı çıxışında Qazaxıstanı da Transxəzər təbii qaz kəməri layihəsinə qoşulmağa dəvət etməsindən sonra Rusiya bu dəfə məsələyə prezident səviyyəsində münasibət bildirmişdir. Rusiya prezidenti Dmitri Medvedev 14 oktyabr 2011-ci il tarixində Təhlükəsizlik Şurasının daimi üzvlərinin iştirakı ilə keçirilən müşavirədə Transxəzər qaz kəmərinin tikintisini "kifayət qədər mürəkkəb məsələ" adlandıraraq, məsələnin Xəzər dənizinin daxili dəniz kimi statusundan birbaşa asılı olduğunu və Xəzəryanı bütün ölkələrin mövqeyinin razılaşdırılmasını tələb etdiyini iddia etmişdir. Türkmənistanın buna da reaksiyası çox açıq olmuşdur.

Türkmənistan Xarici İşlər Nazirliyi 19 oktyabr 2011-ci il tarixli bəyanatında enerji sahəsində Aİ ilə yaxınlaşmasına Rusiyanın rəsmi strukturlarının mövqeyinin anlaşılmaz olduğunu qeyd etmişdir.[91] Bu qarşılıqlı açıqlamalar davam edərkən 2011-ci ilin oktyabrında Aİ Azərbaycan və Türkmənistanla Transxəzər qaz boru kəmərinin hüquqi bazası üzrə danışıqlara başlamışdır. Bu üçtərəfli format üzrə danışıqlar hazırda da davam etdirilir.

Türkiyə Prezidenti Abdulah Gülün 29-31 may 2013 tarixlərindəki Türkmənistanı səfəri zamanı (mayın 30-da) Türkmənistan təbii qazının Xəzər dənizinin altından Azərbaycan və Gürcüstan üzərindən Türkiyəyə, buradan da Avropaya daşınması hədəfi istiqamətində iki ölkənin enerji nazirləri arasında "Türkmənistandan Türkiyə Respublikasına Təbii Qazın Nəqliylə Bağlı Əməkdaşlığa Dair Çərçivə Razılaşması" imzalanmışdır.[92]

Qeyd edək ki, Transxəzər qaz kəməri layihəsi çərçivəsində əsasən təbii qazın Tengiz (Qazaxıstan) - Türkmənbaşı (Türkmənistan) - Bakı (Azərbaycan) - Tiflis (Gürcüstan) - Ərzurum (Türkiyə) marşrutu ilə nəql olunması planlaşdırılır. Amma Xəzərin statusuna dair mübahisələr çərçivəsində fərqli ideyalar da gündəmə gətirilmişdir. Xəzərdəki Azərbaycan və Türkmənistan boru kəməri

[91] "Ministry of Foreign Affairs of Turkmenistan calls Russia's position on Trans-Caspian gas pipeline counterproductive", 18.10.2011, http://www.turkmenistan.ru/en/articles/15502.html (13.07.2014).

[92] Ahmet Davutoğlu, 2014 Yılına Girerken Dış Politikamız, Dışişleri Bakanlığı'nın 2014 Mali Yılı Bütçe Tasarısının TBMM Genel Kurulu'na Sunulması Vesilesiyle Hazırlanan Kitapçık, http://www.mfa.gov.tr/site_media/html/2014-yilina-girerken-dis-politikamiz.pdf (13.07.2014); "Azərbaycan-Türkmənistan-Türkiyənin Enerji Münasibətlərinin Uzlaşdırılması - Trans-Xəzər Boru Kəmərinin Vəziyyəti", http://eunews.az/energy/20131219010120251.html, (13.07.2014).

infrastukturunun arasındakı məsafənin sadəcə 300 km olduğu və sadəcə bu 300 km-lik məsafə üçün yeni bir botu kəmərinin çəkilməsinin mümkünlüyü qeyd olunur.

Bunun həm maliyyə, həm də Xəzərin statusuna dair müzakirələr baxımından riskləri azaltdığı irəli sürülür. Amma, Rusiya və İranın bu taktikanı "hiylə" kimi qiymətləndirərək sərt reaksiya verə biləcəkləri, buna görə də Türkmənistan və Azərbaycanın ehtiyatlı davrandıqları da ehtimal olunur. Tərəflərin məsələyə dair mövqeyinə bir daha nəzər salsaq, Türkmənistanın uzun müddət daha ehtiyatlı, amma Qurbanqulu Berdiməhəmmədovun prezidentliyindən (xüsusilə də Aİ-nin 2011-ci ildəki qərarından) sonra daha cəsarətli mövqe nümayiş etdirdiyini qeyd edə bilərik. Türkmənistan əksər hallarda Avropaya təbii qaz satışı ilə bağlı adətən öz təbii qazını sərhəddə satmağa hazır olduğunu, boru kəmərləri məsələsiylə bağlı birbaşa məsuliyyət götürmək istəmədiyini bəyan etmişdir. Türkmənistan rəsmilərinin müştərilərə təbii qazı sərhəddə satmaq taktikasının Rusiya və İranın təzyiqləri ilə əlaqəli olduğu düşünülür.

Ancaq son dövrlərdə Türkmənistan Transxəzər təbii qaz boru kəməri layihəsi ilə bağlı qərara kənar dövlətlərin (çox güman ki, bu cür ifadələrlə İran və Rusiya nəzərdə tutulur) müdaxilə edə bilməyəcəyini irəli sürmüşdür. Türkmənistanın bu qərarında ABŞ, Aİ və Türkiyənin cəsarətləndirici dəstəyinin və Azərbaycanın reallaşdırdığı enerji layihələrinin də ciddi rol oynadığı düşünülür. Mövzu ilə bağlı Azərbaycanın mövqeyində də tam vahid yanaşmanın olmadığını, müəyyən manevr xarakterli açıqlamaların verildiyini qeyd etmək mümkündür. Türkmənistan kimi Azərbaycan da Transxəzər təbii qaz neft kəməri ilə bağlı qərarın məhz layihənin iştirakçısı olan olan dövlətlər tərəfindən veriləcəyini irəli sürür.

Amma layihə ilə bağlı məsuliyyəti öz üstünə götürmür. Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov hələ 2007-ci ilin noyabrında demişdi: "Azərbaycanın Transxəzər boru xətləri ilə bağlı mövqeyi çoxvariantlıdır. Bizim enerji ehtiyatlarımızın beynəlxalq bazarlara çıxarılması üçün təminatlı və uyğun istiqamətlər nə qədər çox olacaqsa, o qədər yaxşıdır". [93] Azərbaycan Xarici İşlər Nazirliyində Xəzər və enerji məsələləri üzrə əsas məsul şəxs olan Xələf Xələfov 23 noyabr 2011-ci il tarixində Xəzərin hüquqi statusuna dair Astanada keçirilən beştərəfli iclasda Xəzəryanı ölkələrin dənizdə enerji və nəqliyyat-kommunikasiya layihələrini həyata keçirmək üçün suveren hüquqa malik olduqlarını vurğulamışdı.

Digər tərəfdən ARDNŞ-nin prezidenti Rövnəq Abdullayev 4 aprel 2012-ci il tarixində Transxəzər qaz boru kəmərinin inşası layihəsinin Azərbaycanın layihəsi olmadığını, bu layihənin, Türkmənistan və Aİ-yə aid olduğunu və Azərbaycan burada sadəcə tərəfdaş kimi çıxış etdiyini bildirmişdir. O qeyd etmişdir ki, layihənin reallaşdırılması Türkmənistan və Avropa İttifaqının işidir, Azərbaycan burada ən yaxşı halda tranzit ölkə kimi çıxış edə bilər. Halbuki, 24 aprel 2012-ci il tarixdə Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev, Transxəzər boru kəməri ilə bağlı Azərbaycanın siyasi iradəsinin olduğunu, amma Türkmənistanın mövqeyinin qeyri-müəyyən qaldığını irəli sürmüşdür.

[93] "Xələf Xələfov: `Transxəzər layihəsi ilə bağlı razılaşma borunun keçdiyi ölkələr arasında olmalıdır`", http://az.apa.az/news/78319, 16 noyabr 2007, (13.07.2014)

Natiq Əliyev 18 sentyabr 2012-ci il tarixli açıqlmasında layihənin həyata keçirilməsi üçün Azərbaycanla Türkmənistanın razılığının kifayət edəcəyini bildirdikdən sonra bəzi vacib şərtləri qeyd etmişdir: "Danışıqlarda müzakirə olunan ən mühüm və mürəkkəb məsələ tərəflərin öhdəlikləri ilə bağlıdır. Belə ki, qaz kəmərinin illik gücü 30 mlrd. kubmetrdən az olmamalıdır. Bundan başqa, Avropa Birliyi bu kəmərlə nəql olunacaq qazı alacağına təminat verməlidir. Kəmərin kim tərəfindən maliyyələşdiriləcəyi məsələsi də açıq qalıb".

Məsələyə dair Aİ-nin mövqeyi də Türkmənistan və Azərbaycanın mövqeyi ilə müəyyən dərəcədə oxşarlıq təşkil edir. Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebi Xəzəryanı ölkələrin dövlət başçılarının Tehran sammitinin yekunlarını şərh edərkən (18 oktyabr 2007-ci il tarixli açıqlamasında) Transxəzər boru kəmərləri layihələrinin Aİ üçün prioritet olduğunu vurğulamışdır.[94] Aİ-nin Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Pyer Morel 6 mart 2008-ci ildə bildirib ki, Aİ Transxəzər layihəsini yalnız iqtisadi və texniki baxımdan əlverişli olduğu üçün dəstəkləyir. Aİ rəsmiləri mütəmadi olaraq Xəzərin statusuna dair danışıqların Transxəzər qaz kəməri layihəsinin reallaşmasına təsir göstərmədiyini (Rusiya və İranın mövqeyinin əksinə) vurğulayıblar. 2014-cü ilin aprelində Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Malena Mard müsahibəsində demişdir ki, Azərbaycan, Türkmənistan və Avropa Komissiyası arasında danışıqların davam etdirilməsi olduqca vacib məsələdir. Malena Mard qeyd etmişdir ki, Aİ enerji daşıyıcılarının tədarükünün şaxələndirilməsində maraqlıdır. Buna görə də Türkmənistandan çıxarılan qazın Xəzər dənizi vasitəsilə Avropaya nəql olunmasını istəyir.[95]

ABŞ Dövlət Departamenti də mütəmadi olaraq açıqlama vermişdir ki, Türkmənistan və Azərbaycan Transxəzər layihəsi barədə razılığa gəlsə, heç bir ölkə bu qərarı əngəlləyə bilməz. Bəzi məqamlarda isə ABŞ rəsmiləri daha da sərt mövqe nümayiş etdirərək, "Vaşinqtonun Moskvanın Transxəzər qaz kəməri layihəsinin reallaşmasına müdaxiləsinə imkan verməyəcəyini" vurğulayıblar:[96] "ABŞ hökuməti birmənalı şəkildə Transxəzər qaz kəmərinin tikintisini dəstəkləyir. Türkmənistan və Azərbaycan razılıq verəcəyi təqdirdə heç bir ölkə Xəzərin dibi ilə qaz kəmərinin çəkilişini qadağan edə bilməz." 16 avqust 2007-ci il tarixində Bakıda Transxəzər neft və qaz boru kəmərlərinin tikintisi layihəsi üzrə təhqiqatların aparılması üçün ABŞ-ın Ticarət və İnkişaf Agentliyi (TDA) ilə ARDNŞ arasında qrant sazişi imzalanmışdır.

Artıq yuxarıda qeyd olunduğu kimi Transxəzər təbii qaz boru kəmərinin əsasında duran məsələlərdən bəlkə də birincisi Türkiyənin Türkmənistandan təbii qaz satın almaq istəməsi olmuşdur. Təsadüfi deyildir ki, Türkiyə Respublikasının Xarici İşlər Nazirliyinin rəsmi saytında bu ölkənin enerji strategiyasının əsası belə izah olunur: "Türkiyə geniş Xəzər hövzəsi və Yaxın-Orta Şərqin karbohidrogen ehtiyatlarının Türkiyəyə və Türkiyə üzərindən Avropaya etibarlı və fasiləsiz şəkildə daşınmasının gerçəkləşdirilə bilməsini hədəfləməkdədir."[97]

---

[94] "Piter Semnebi: `Azərbaycan Avropa İttifaqı üçün alternativ enerji təminatçısı olmaqla yanaşı, tranzit ölkə kimi də əhəmiyyət kəsb edir`", http://az.apa.az/news/74706 18 oktyabr 2007 (13.07.2014)

[95] "Avropa İttifaqı Trans-Xəzər qaz kəmərinin çəkilməsi üzrə danışıqların davam etdirilməsində maraqlıdır", http://azertag.com/node/1209594 04.04.2014, (13.07.2014)

[96] "Vaşinqton Moskvanın Transxəzər qaz kəməri layihəsinin reallaşmasına müdaxiləsinə imkan verməyəcək", http://az.apa.az/news/278668, 15 Noyabr 2012, (13.07.2014)

[97] "Türkiye'nin Enerji Stratejisi", http://www.mfa.gov.tr/turkiye_nin-enerji-stratejisi.tr.mfa

Türkiyə Xarici İşlər Nazirliyi rəsmi olaraq vurğulayır ki, "Xəzərdən Keçən Təbii Qaz Boru Kəməri" layihəsi ilə başlanğıcda nəzərdə tutulan Türkmənistan-Türkiyə-Avropa təbii qaz boru kəməri idi. Amma Rusiya Federasiyası ilə Ukrayna arasında yaşanan "təbii qaz böhranı"ndan sonra Türkmənistan təbii qazı ilə yanaşı Qazaxıstan təbii qazının da Xəzərdən keçən bir boru kəməri ilə Qərb bazarlarına çatdırılması ehtiyacını yaratmışdır. Bu səbəbdən də hazırda Transxəzər layihəsi, Qazaxıstan və Türkmənistan təbii qazının Xəzər dənizinin dibindən çəkiləcək bir boru kəməri ilə Azərbaycana və daha sonra Türkiyə üzərindən Avropaya çatdıracaq boru kəməri layihəsidir.[98]

Transxəzər təbii qaz boru kəmərini dəstəkləyən ölkələr arasında Böyük Britaniya və Ukrayna da yer almışdır. Böyük Britaniyanın enerji və iqlim dəyişikliyi naziri Çarlz Hendri Azərbaycana səfərinin yekunlarına həsr olunmuş 29 sentyabr 2011-ci il tarixli mətbuat konfransında Transxəzər layihəsini dəstəkləyib. Layihənin ətraf mühitə zərər vurması və İranla Rusiyanın məhz bu səbəbdən layihənin əleyhinə çıxması məsələsinə münasibət bildirən Böyük Britaniyalı nazir "Şimal dəhlizi" çərçivəsində Rusiyanın özünün qaz kəmərini Baltik dənizinin dibi ilə çəkdiyini qeyd edib. Çarlz Hendri bildirib ki, Transxəzər layihəsi çərçivəsində bir çox vacib qərarları məhz Azərbaycan və Türkmənistan verəcək. 29 yanvar 2008-ci il tarixində Ukraynanın baş naziri Yuliya Timoşenko Avropa Parlamentinin Xarici İşlər Komitəsindəki çıxışında "White Stream" (Bəyaz Axın) çərçivəsində Transxəzər layihəsinə dəstək tələb etmişdir.[99] 4 aprel 2012-ci il tarixində Bakıda səfərdə olan Ukraynanın baş naziri Nikolay Azarov Azərbaycan Prezidenti İlham Əliyevlə görüşündə, 6 iyun 2013-cü il tarixində Ukrayna prezidenti Viktor Yanukoviç parlamentə göndərdiyi "2013-cü ildə Ukraynanın daxili və xarici vəziyyəti" adlı müraciətində Transxəzər qaz kəməri layihəsini dəstəkləyib.

Layihəyə qarşı ən sərt müxalif mövqe nümayiş etdirən iki ölkə Rusiya və İran olmuşdur. Rusiya Türkmənistan təbii qazının nəqli üzərindəki hakim mövqeyini itirdikcə bir yandan Transxəzərə qarşı sərt bəyanatlar vermək, digər yandan isə Türkmənistan qazını daha yüksək qiymətə satın almaq taktikasına müraciət etməyə çalışmışdır. Məsələn, Türkmənistan tərəfinin tələbinin nəticəsi olaraq, 2007-ci ilin noyabrında "Qazprom" şirkəti bu ölkədən aldığı qazın qiymətini hər min kubmetr üçün 130 dollardan 150 dollaradək artırmağa, 2009-cu ildən isə "bazar qiymətlərini" ödəməyə razılıq verib. "Qazprom"un Türkmənistanın tələblərinə asanlıqla razılaşması Qərbin bu istiqamətdə göstərdiyi aktivliyin nəticəsidir. Belə ki, ABŞ və Avropa İttifaqı Türkmənistanın öz qazını bazar qiymətləri ilə satması istəyini tam şəkildə dəstəkləyir.

Təsadüfi deyildir ki, Rusiya Türkmənistanın qiymətin artığı ilə bağlı tələblərinə görə dəfələrlə Türkmənistanın "yeni müştərilərini" günahlandırmışdır. Medvedevin yuxarıdakı hissələrdə qeyd olunan bəyanatından əlavə 8 iyun 2012-ci il tarixində Rusiya prezidenti Vladimir Putin də Xəzər dənizi ilə bağlı istənilən qərar yalnız Xəzəryanı beş ölkənin konsensusu əsasında qəbul edilməli olduğunu qeyd etmişdir.[100]

---

[98] Zafer Ateş, "Doğu-Batı Enerji Koridoru: 2 Tamam 1 Eksik", http://www.mfa.gov.tr/dogu-bati-enerji-koridoru_-2-tamam-1-eksik.tr.mfa (13.07.2014)

[99] "Yuliya Timoşenko Avropa Birliyinə "Nabucco"nun əvəzinə "White Stream" qaz boru xəttinin tikintisini təklif edib", 29 Yanvar 2008, http://az.apa.az/news/86166 (13.07.2014)

[100] "Ушаков: Президент РФ призвал ЕС к решительным мерам в экономике", http://www.rosbalt.ru/main/2012/06/08/990715.html (13.07.2014)

İran xarici işlər nazirinin müavini Mehdi Səfəri 4 sentyabr 2008-ci il tarixli açıqlamasında ölkəsinin "Transxəzər" layihəsinin əleyhinə olduğunu bildirib: "Çünki həmin layihə Xəzər dənizinin ekoloji durumuna pis təsir edə bilər. Mərkəzi Asiyadan enerji resurslarını İran, yaxud Rusiya vasitəsilə də daşımaq olar. Belə yollar varsa, niyə risk edərək, "Transxəzər" layihəsini tikməliyik?"[101]. İranın neft sənayesi naziri Hüseyn Noqrekar Şirazi də 13 fevral 2009-cu il tarixli açıqlamasında Transxəzər neft boru kəməri ilə bağlı oxşar mövqe nümayiş etdirib.

## Yekun Rəy

Beləliklə, biz əgər "Transxəzər əməkdaşlığı" deyərkən konkret olaraq Xəzərin dibi ilə neft ya da təbii qaz boru kəmərlərinin çəkilməsini nəzərdə tuturuqsa, bu istiqamətdə ciddi irəliləyişlərin əldə olunduğunu hələ ki, qeyd etmək mümkün deyildir. Amma "Transxəzər əməkdaşlığı" deyərkən Xəzərin şərqindəki gənc dövlətlərlə qərb sahilindəki dövlətlər arasında Xəzər vasitəsiylə əməkdaşlığı nəzərdə tuturuqsa, onda mənzərə o qədər də pis deyil. Rusiya və İranın sərt müxalifəti, Rusiyanın son illərdə artan gücü və artan fəallığı, Xəzərin statusu məsələsinin həllsiz qalması və xüsusiylə də bu həllsizliyinin Azərbaycan ilə Türkmənistan arasındakı münasibətləri normallaşmağa qoymaması da nəzərə alındıqda Xəzər vasitəsiylə neftin və təbii qazın nəqli istiqamətində atılan addımlar ciddi uğurlar kimi qiymətləndirilməlidir.

İndiyə qədərki mərhələdə Xəzərin dibi ilə neft və təbii qaz boru kəmərlərinin çəkilməsinin önündəki başlıca maneələr belə qeyd oluna bilər:

1. Xəzərin hüquqi statusu probleminin həllsiz qalması;
2. Rusiya və İranın sərt siyasi müxalifəti;
3. "Ekoloji narahatlıq"ların gündəmə gətirilməsi;
4. Azərbaycanla Türkmənistan arasında Xəzərin orta xətt üzrə bölgüsünə dair mübahisələrin davam etməsi;
5. ABŞ və Aİ-nin (xüsusilə ikincinin) addımlarının açıqlamaları ilə müqayisədə daha ehtiyatlı olması;
6. Layihənin iqtisadi cəhətdən səmərəliliyi ilə bağlı suallar və layihənin reallaşdırılması üçün maliyyənin haradan tapılacağı məsələsi;
7. Türkmənistan və Qazaxıstanın digər bazarlara yönəlməsi;
8. Azərbaycan ilə Türkmənistanın həm də təbii qaz bazarında rəqib olmaları.

[101] "Vice Pres: Iran best path for transferring Caspian Sea oil and gas", http://www.irna.ir/en/News/80453934/Economic/Vice_Pres__Iran_best_path_for_transferring_Caspian_Sea_oil_and_gas (13.07.2014); "Иран против прокладки трубопроводов по дну Каспия", http://www.oilru.com/news/81667/ (13.07.2014)

Bir-biriylə əlaqəli olan bu maddələrin hər biri az ya da çox dərəcədə Transxəzər neft və təbii qaz boru kəmərlərinin reallaşmasına mane olur. Amma onlardan sadəcə biri hələlik təkbaşına həlledici rola malikdir. Bu da Rusiya və İranın (xüsusilə birincinin) sərt müxalifəti maddəsidir. Ekoloji narahatlıqların tam əsaslı olmadığını Azərbaycan rəsmiləri də, Transxəzərin Qərbdəki dəstəkçiləri də açıq şəkildə vurğulamışdır.

Məsələn, ARDNŞ-nin vitse-prezidenti Elşad Nəsirov bəzi ölkələrin Transxəzər qaz kəmərinin çəkilməsi layihəsinin perspektivsizliyi ilə bağlı səsləndirdiyi bəyanatlara münasibət bildirərkən belə demişdir: "Biz anlaya bilmirik ki, söhbət Transxəzər boru kəmərinin inşasından gedəndə hansı ekoloji problemlər nəzərdə tutulur. Xəzərin Qazaxıstan və Azərbaycan sahilləri arasındakı məsafə cəmi 300 km-dir. Xəzərin Azərbaycan sektorunda uzunluğu 4 min km olan sualtı boru kəmərləri çəkilib ki, bunlar vasitəsilə neft və qaz nəql olunur.

Xəzərin Qazaxıstan və Türkmənistan sektorlarında da vəziyyət eynidir və ekologiya ilə bağlı heç bir problem yoxdur. Biz bütün şərtləri razılaşdırmaq və iqtisadi əməkdaşlığa başlamaq istəyirik."[102] Azərbaycanla Türkmənistan arasında Xəzərin orta xətt üzrə bölgüsünə dair mübahisələrin davam etməsi bu iki ölkənin Transxəzər üzrə əməkdaşlığına mane olan amillərdən biri kimi dəyərləndirilsə də, hazırda bu ölkələrin neftin nəqli ilə bağlı əməkdaşlıq etmələri göstərir ki, bu məqam həlledici deyil və digər problemlər həll olduqda (xüsusilə Rusiya amili neytrallaşdırıldıqda) Azərbaycan ilə Türkmənistan Transxəzər təbii qaz boru kəməri məsələsində də əməkdaşlıq edəcəkdir.

Azərbaycan ilə Türkmənistanın təbii qaz bazarında rəqib olmaları da bəzi ekspertlər tərəfindən ciddi amil kimi qiymətləndirilir. Hətta Transxəzər boru kəməri ideyası ilk dəfə gündəmə gəldiyi zaman Azərbaycan ilə Türkmənistan arasında ortaya çıxan anlaşmazlıqların səbəbləri arasında bu rəqabət də qeyd olunur. Ancaq təbii qaza çox sürətlə artan tələbat, Rusiyadan kənar mənbə axtarışı və Azərbaycanın təbii qaz ehtiyatlarının bazarda təkbaşına iddialılığa kifayət etməməsi fonunda Azərbaycan və Türkmənistanın hər ikisinin təbii qaza malik olmaları rəqabətdən çox faydalı əməkdaşlıq üçün səbəb ola bilir.

Şübhəsiz ki, bu cür iri layihələrin reallaşması baxımından Qərbin və xüsusilə ABŞ-ın dəstəyi vacibdir. Xüsusilə Ukraynada son baş verən proseslər (Krımın Rusiya tərəfindən işğalı və Ukraynanın şərqində baş verənlər), eləcə də Rusiyanın keçmiş SSRİ-ni "bərpa etmək" ilə bağlı səyləri ABŞ və Aİ-nin regionda cavab addımları atmasını zəruri etmişdir və bu zərurət yəqin ki, Transxəzər boru kəmərlərinə dəstəyin də artmasını şərtləndirəcəkdir. Bu dəstək sadəcə Transxəzər boru kəmərlərinin çəkilməsi üçün vacib deyildir. Çəkilən boru kəmərlərinin təhlükəsizliyinin Rusiya və İran qarşısında təmininin Azərbaycan, Qazaxıstan və Türkmənistan üçün nə qədər çətin olacağı aydındır.

Transxəzər boru kəmərlərinin iqtisadi tərəfinə gəldikdə isə, bu layihələrin sırf "boru kəmərlərinin iqtisadiyyatı" (rentabelliliyi) ilə əsaslandırılması mümkün deyildir. Amma bu kəmərlər həm alıcıların, həm də satıcıların geniş mənada iqtisadi maraqları çərçivəsində dəyərləndirildiyi zaman bütün tərəflər üçün səmərəli olduğuna şübhə yoxdur.

---

[102] "Avropa və Azərbaycan "Nabucco" layihəsinin perspektivinə inanır", 2 İyul 2007, http://az.apa.az/news/114329 (13.07.2014)

Türkmənistan və Qazaxıstanın digər bazarlara yönəlməsi Transxəzər kəmərləri qarşısındakı maneələrdən biri kimi qiymətləndirilir. Belə ki, bu iki dövlət digər istiqamətlərdə boru kəmərlərinə malikdir ki, istehsal etdiyi təbii ehtiyatları həmin kəmərlərə yönəltməsi Transxəzərə olan ehtiyacı zəiflədirici amildir. Məsələn, Türkmənistan hazırda öz təbii qazını Çinə (dünyadakı 7000 kilometrlik ən böyük qaz kəməri bu iki ölkəni birləşdirir, nəqletmə gücü ildə 40 milyard kubmetrdir), Rusiyaya (ildə ilkin 30 milyarddan ildə 10 milyard kubmetr), İrana (ildə 14 milyard kubmetr) satır. Qazaxıstan da müxtəlif istiqamətlərdə neft kəmərlərinə malikdir. Amma bu iki ölkənin neft və təbii qaz istehsalının artması ilə bağlı gözləntilər də yüksəkdir.

Yenidən Rusiya və İranın müxalif mövqeyi məsələsinə qayıdaq. Bu iki ölkə regiona yaxın iddialı 4 dövlətdən (Rusiya, Çin, Türkiyə və İran) ikisi və coğrafi cəhətdən daha yaxın olanlarıdır. Bu iki ölkə Transxəzər kəmərlərinin reallaşacağı Xəzərin sahilyanı ölkəsidir. Bu iki ölkə, Transxəzər boru kəmərləri vasitəsiylə bazarlara nəql olunacaq təbii ehtiyatlara dünyada ən çox malik olan ölkələr arasındadır və meydana yeni rəqiblərinin çıxması onları narahat edir. Transxəzərin Rusiyaya rəğmən reallaşması Rusiya tərəfindən "böyük strateji zərbə" kimi qiymətləndiriləcəkdir.
Bu iki ölkədən Rusiya xeyli, İran isə müəyyən dərəcədə Xəzəryanı ölkələrdə təsir imkanlarına malikdir. Rusiya Cənubi Qafqazda Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı, Cənubi Osetiya və Abxaziya problemi kimi kartlara malikdir. Rusiyanın eləcə də, Qazaxıstan və Türkmənistanda problemlər yaratmaq imkanına malik olduğu düşünülür. Təbii olaraq gənc dövlətlər bütün bunları nəzərə alırlar. Buna görə də Transxəzər boru kəmərləri sadəcə tərəflərdə əməkdaşlıq iradəsi olduğu zaman yox, daha çox bu dövlətlər özlərini Rusiya və İran qarşısında güclü hesab etdikləri zaman reallaşa bilər.

## Azərbaycan-İran münasibətləri: Xəzərin statusu və Transxəzər

Xəzərin statusu və Transxəzər əməkdaşlığı baxımından ən həmiyyətli məsələlərdən biri də İran-Azərbaycan münasibətləridir. İlk iki hissədə yeri gəldikcə Azərbaycan-İran münasibətləriylə bağlı məqamlara da qısaca toxunmuşduq. İran-Azərbaycan münasibətlərini daha aydın başa düşmək üçün hər iki ölkənin xarici siyasətini, Cənubi Qafqazda gedən prosesləri, xüsusilə İranın Cənubi Qafqaz siyasətinin əsaslarını və bu ölkənin Cənubi Qafqaz ölkələri ilə ikitərəfli münasibətlərini bilmək əhəmiyyətlidir. Amma bu araşdırmada geniş yer tutmaması üçün sadəcə olaraq ümumi şəkildə Cənubi Qafqaz regionunun İran üçün əhəmiyyətinə toxunulacaqdır. SSRİ-nin dağılma mərhələsində İran üçün Cənubi Qafqaz aşağıdakı səbəblərdən xüsusi əhəmiyyət daşıyır:

1. Xüsusilə, bölgə ölkələrinin müstəqilliyə qovuşmasının ilk illərində yayılma sahəsi meydana gətirmək (Azərbaycanın və Azərbaycan Türklərinin sıx yaşadığı Cənubi Gürcüstanın timsalında);

2. Böyük güclərin (xüsusilə ABŞ başda olmaqla Qərbin, eləcə də Rusiyanın və Türkiyənin) özünə istiqamətlənmiş planlarına mane olmaq;

3. Müstəqil Azərbaycanın güclənməsi zamanı bunun öz sərhədləri içərisindəki Azərbaycan Türkləri üzərində yarada biləcəyi mümkün təsiri, hətta daha da irəli gedərək Azərbaycanın müstəqilliyini məhdudlaşdırmaq;

4. Bölgədəki təbii ehtiyatların xarici şirkətlər tərəfindən istehsalına və bu ehtiyatların beynəlxalq bazarlara çıxarılmasına mane olmaq (həm Qərb güclərinin bölgəyə bu səsəblərlə/bəhanələrlə yerləşmələrinin qarşısını almaq, həm də istehsalçı kimi özünə rəqib yaranmasına mane olmaq).

Göründüyü kimi, SSRİ-nin dağılmasından sonrakı mərhələ üçün geosiyasi mübarizə baxımından yeni bir meydan xüsusiyyəti qazanan Cənubi Qafqaz, İran üçün "həm risklər, həm də fürsətlər sahəsi" kimi diqqəti cəlb etmişdir. SSRİ-nin parçalanması İranın son üç əsrdə ən mühüm təhdid hesab etdiyi Rusiya ilə birbaşa sərhəddinin aradan qalxmasına səbəb olmuşdu. Onun yerinə isə qonşuluqda Azərbaycan, Gürcüstan və Ermənistan kimi nisbətən "kiçik dövlətlər" yaranmışdı ki, bu da İran tərəfindən Qafqaza dair tarixi iddilarının yenidən gündəmə gətirilməsi fürsəti kimi qiymətləndirmişdir. Amma digər tərəfdən İran üçün "müstəqil Azərbaycan problemi" yaranmışdı.

Başqa bir baxışa görə isə Azərbaycan-İran münasibətləri bu iki ölkənin sadəcə xarici siyasəti baxımından deyil, həyati mənafeləri, gələcəkləri və hətta mövcudiyyətləri baxımından böyük əhəmiyyət daşıyan bir mövzudur. Bu iki qonşu ölkənin yerləşdikləri coğrafiya, sahib olduqları xüsusiyyətlər, təbii ehtiyatları, digər qonşuları, qlobal rəqabətin bölgəyə əks olunmaları, bu iki ölkənin daxili və xarici siyasətinin xüsusiyyətləri, bölgədəki digər güclərin bu iki ölkəylə bağlı hədəfləri və siyasətləri Azərbaycan-İran münasibətlərinin əhəmiyyətini artırır. İki ölkənin üçüncü ölkələrlə və beynəlxalq təşkilatlarla münasibətləri, hətta öz daxili siyasətləriylə bağlı addımları, ideoloji xəttləri və rəsmilərinin (eləcə də qeyri-rəsmilərinin) açıqlamaları Azərbaycan-İran münasibətlərinə birbaşa və daimi olaraq təsir edir.

Yuxarıdakı qeydlərdən də göründüyü kimi, İran üçün Cənubi Qafqazın əhəmiyyətini şərtləndirən əsas amillər məhz Azərbaycanla bağlıdır. İran xarici siyasətində Azərbaycanın yerini şərtləndirən bir amil də SSRİ-nin dağılmasıyla ortaya çıxan yeni Türk dövlətləri olmuşdur. Belə ki, bölgədə Türk Respublikalarının ortaya çıxması İranı təhlükəsizlik tarazlığını dəyişdirməyə məcbur etmişdir. Bu proses İran siyasi ədəbiyyatında "Türk Cəbhəsi" anlayışını ortaya çıxarmışdır. Sərhədləri daxilində əhəmiyyətli sayda türk yaşayan İran bu vəziyyəti potensial təhlükə olaraq qəbul etmişdir. Bu səbəbdən də xüsusilə Türk dövlətləri arasında "körpü" mövqeyinə malik olduğu ifadə edilən Azərbaycan, İran üçün "təhlükənin mərkəzi" kimi qəbul olunmağa başlamışdır.

Yeni vəziyyətdə Qərb dövlətlərini və Türk Respublikalarını təhlükə kimi dəyərləndirən İranın beynəlxalq sistemdəki yeri, Rusiyanı bu ölkə üçün əhəmiyyətli bir müttəfiqə çevrilmişdir. Bu istiqamətdə İran Rusiyanın keçmiş SSRİ məkanında (xüsusilə də Müstəqil Dövlətlər Birliyi coğrafiyasında) daha güclü olması üçün səylər göstərmişdir. İran bu çərçivədə Xəzəri öz maraqları baxımından ən stratejik yerlərdən biri kimi qiymətləndirmişdir. Belə ki, Xəzər İran ilə Rusiya arasında birbaşa tək yol olma xüsusiyyətinə malikdir və Xəzərdə İrana

rəğmən atılacaq addımlar digər məqamlarla yanaşı bu iki ölkənin Xəzər vasitəsiylə əlaqəsinə də mane ola bilər.

Digər tərəfdən Xəzəryanı ölkələrin öz təbii ehtiyatlarını beynəlxalq bazarlara İran vasitəsiylə nəql etmələri İranın beynəlxalq sistemə inteqrasiya olmaq səyinə kömək edə bilər. Amma bu ölkələrin İrandan yan keçən yollarla, eləcə də Transxəzər vasitəsiylə beynəlxalq bazarlara çıxışı İranın bu məqsədinə çatmasına da mane olur. İran buna görə də Xəzərə dair məsələlərə həddindən artıq həssas yanaşmaqdadır. Azərbaycan baxımından isə İran daha çox bu xüsusiyyətlərlə ön plana çıxmışdır:

1. Müxtəlif səbəblərə (ümumiyyətlə Qafqazı, bu çərçivədə Azərbaycanı "tarixi İran"ın bir parçası olaraq görənlərin, ya da şiə coğrafiyasında üstünlük axtarışı içərisində olmanın əhəmiyyətini ön plana çıxaran güclərin fəallığı səbəbiylə) görə genişlənmək üçün sahə axtaran bir dövlətdir;

2. Azərbaycanın müstəqilliyini, hətta varlığını belə özü üçün təhlükə mənbəyi olaraq görən, bu səbəblə də Azərbaycana qarşı hər cür siyasət tətbiq etməyə çalışması mümkün olan bir qonşudur;

3. Azərbaycan dəyərlərini (Azərbaycan tarixinin ən şanlı dövrlərini, mədəniyyətini, ədəbiyyatını, sənətini və s.) sahiblənməyə çalışan bir ölkədir;

4. Rəsmi sərhədləri daxilində saxladığı Azərbaycan coğrafiyası, əhalisi və s. səbəbiylə daimi cazibə mərkəzidir;

5. Digər yandan İranın "Azərbaycan" mövzusundakı problemi sadəcə müstəqil Azərbaycan dövləti, ya da Azərbaycan adı səbəbilə deyil, Azərbaycanın adına və varlığına istiqamətlənmiş problemin kökü də bu ölkədədir. Azərbaycan Türklərinin əslində Fars mənşəli "Azəri" adlı tayfa olduqları, lakin sonradan Türklər tərəfindən assimilyasiya edildikləri iddiası Azərbaycan Türk varlığını yox saydığı üçün də bir təhdid kimi görünür;

6. İran Azərbaycan üçün həyati strateji əhəmiyyətə malik mövzularında (Qarabağ problemi, enerji siyasəti, Xəzərin statusu və s.) arzu olunmayan ya da tam əks mövqe nümayiş etdirən bir ölkədir.

7. Xarici siyasətində terrordan vasitə kimi istifadə etməsi, rejim ixrac etməyə çalışması, regional və qlobal siyasət baxımından daim gərginlik mənbəyi olması da bu ölkəni Azərbaycan üçün böyük təhlükə mənbəyi, amma eyni zamanda xarici siyasətində müəyyən fürsətlər də yaradan bir dövlət kimi xarakterizə edir.

Müasir mənada Azərbaycan-İran münasibətlərindən daha çox 1991-ci ildən sonrakı mərhələ üçün bəhs etmək mümkündür. Azərbaycan-İran münasibətlərindəki gərginliklərdə "Bütöv Azərbaycan" məsələsinin, Qarabağ

probleminin, Azərbaycanın bəzi dövlətlərlə münasibətlərinin, Xəzərin statusu məsələsinin və Transxəzər təşəbbüslərinin izini görmək mümkündür. 1993-cü ilin sonlarına qədər Azərbaycanda (və Azərbaycandan kənarda da) çoxları düşünürdü ki, İran-Azərbaycan münasibətlərindəki gərginliyin əsas səbəbi Azərbaycana bir il prezidentlik etmiş olan Əbülfəz Elçibəyin "Bütöv Azərbaycan" ritorikası və addımları idi. Amma istər Heydər Əliyevin, istərsə də İlham Əliyevin prezidentliyi dövründə yaşanan sərt gərginliklər göstərmişdir ki, bu tam belə deyil.

1990-cı illərin əvvəllərində İranın Qarabağ problemi ilə əlaqədar "mübahisəli" mövqeyindən danışmaq mümkündür. İran bir yandan Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsini, digər yandan isə müharibənin davam etməsini özünə təhlükə kimi görmüşdür. Ərazi bütövlüyünü təmin edən Azərbaycan cazibə mərkəzi kimi, müharibə isə İrandakı Azərbaycan türklərinin milli duyğularını qabardan, onları hərəkətə keçirən və onların rejim ilə bağlarını qoparan amil kimi İranı narahat etmişdir. İran üçün Qarabağ problemi həm də "kənar güclər"in bölgəyə müdaxiləsinə imkan verən amil kimi də narahatlıq yaratmışdır. Buna görə də İran "orta yol" tapmağa, bəzən Ermənistan ilə Azərbaycan arasında vasitəçilik etməyə çalışmışdır. Azərbaycan İranı dəfərlərlə onun ərazisində terror aksiyaları, terror aksiyalarına hazırlıqlar, rejim ixracı təşəbbüsləri ilə ittiham etmişdir.

İran baxımından Azərbaycan ilə münasibətlərdə təhlükəsizlik problemləri, xüsusilə Azərbaycanın ABŞ və İsrail ilə əlaqələri mühüm yer tutmuşdur. İran Azərbaycanda ABŞ və İsrailin hərbi və kəşfiyyat imkanlarının artdığını iddia edərək ona hücum etməyə çalışmışdır. İran bu cür səbəblər irəli sürərək Azərbaycanı mütəmadi tənqid və hətta təhdid etmişdir. İran təhdidlərinin mərkəzinə gah Azərbaycanın xarici əlaqələrini, gah da güya İslama lazımlı şəkildə diqqət göstərməməsini qoymuşdur.

İran-Azərbaycan münasibətləri baxımından Azərbaycanın neft istehsalı, istehsal etdiyi nefti beynəlxalq bazarlara nəql etməsi və Transxəzər əməkdaşlığı ilə bağlı təşəbbüsləri problemli sahələr kimi diqqət çəkmişdir. Ümumiyyətlə Xəzər İranın liderləri trəfindən İranın "strateji dərinliyi" olaraq qəbul edilir. Bu baxımdan İran Xəzərdəki siyasi və iqtisadi tarazlığı həyati dərəcədə əhəmiyyətli qəbul edir. İran Xəzərdən iqtisadi baxımdan arzu etdiyi qədər faydalana bilməmişdir. İranın Xəzərdən arzuladığı qədər faydalana bilməməsi, əksinə bu hövzənin İran üçün problemə çevrilməsi ehtimalı İranı narahat edir. Çünkü İranın həm Xəzərə, həm də Bəsrə körfəzinə çıxış imkanı mövcuddur. Amma İran bu geosiyasi imkandan lazımı qədər istifadə edə bilməyib. İranlılar bu vəziyyətdən ciddi şəkildə narahatdırlar və bunun dəyişməsini istəyirlər.

Bəzi İranlı mütəxəssislərə görə Xəzərin hüquqi statusu probleminin onların arzuladığı şəkildə həll olunmamış olması, İran diplomatiyanın kifayətsizliyi və ən əhəmiyyətlisi İranın Qərblə yaşadığı problemlər Xəzərdən lazımınca istifadə edilə bilməməsinin ən əhəmiyyətli səbəbləridir. İran-Qərb gərginliyi İranın enerji dəhlizi olmasına mane olur. Əsas enerji layihələri İranı kənarda saxlayacaq şəkildə planlaşdırılır. İranlılara görə halbuki İran ən yaxşı nəqliyyat yoludur, bu nəqliyyat yoluna bütün ölkələrin, eləcə də qlobal güclərin ehtiyacı var. Ancaq bu nəqliyyat imkanından İranın Qərblə yaşadığı gərginlik səbəbiylə istifadə edilmir.

Bəzi İranlı mütəxəssislərə görə Qərbin siyasəti İranın mövqeyinin zəifləməsi ilə nəticələnmişdir. İranın Xəzərdəki mövqeyinə ən sərt zərbə də məhz Qərbdən

dəymişdir. Qısacası, İran Qərb ilə yaşadığı gərginliyin onun strateji imkanlarını məhdudlaşdırdığını düşünür. Digər tərəfdən İran xarici güclərin Xəzərdəki varlığını qəbul etmir. Xüsusilə Xəzərin hərbiləşməsi, xarici dövlətlərin hərbi imkanlarının Xəzərə cəlb olunması İranı bərk narahat edir.

İranın hazırkı prezidenti Həsən Ruhani və komandasının Qərblə yaxınlaşma siyasətinin kökündə digər məqamlarla yanaşı bu amil də vardır. Daha çox kimlik mərkəzli baxışla təhlil edilən İran-Azərbaycan münasibətlərinin də əslində petro-siyasi və enerji-siyasi istiqamətləri xeyli ciddidir. Azərbaycanın həm öz istehsal etdiyi nefti və təbii qazı Avropaya satması, həm də Xəzərin digər sahilindəki qonşularının təbii ehtiyatlarının beynəlxalq bazarlara nəqlində əhəmiyyətli körpü rolunu oynaması İran-Qərb gərginliyində İranın mövqeyini və manevr imkanlarını zəiflədir.

Başqa bir baxışla, Azərbaycanın İran-Qərb gərginliyindən faydalanaraq mövqeyini gücləndirməsi İranı narahat edir. Azərbaycanın enerji siyasəti bu ölkənin dünya ilə əlaqələrini gücləndirir. Bu vəziyyət Azərbaycanın İran qarşısında daha güclü olmasına və İranın siyasətlərinə daha ciddi müqavimət göstərməsinə imkanı verir. Azərbaycanın enerji siyasəti eyni zamanda iqtidarı daxili siyasətdə da daha güclü hala gətirir. Azərbaycanda dövlət aparatının yerləşməsi və iqtidarın güclü olması isə İranın bu ölkəylə bağlı təsir imkanlarını daraldır.

Beləliklə, Xəzər həm Azərbaycan, həm də İran üçün strateji əhəmiyyəti xeyli böyük olan bir yerdir. Ona görə də Xəzərə dair baş verənlər, bir yandan Xəzəryanı ölkələrin ümumi maraqlarının və ümumi xarici siyasətələrinin nəticəsi kimi görünsə də, digər tərəfdən Xəzər bu ümumi maraqların və ümumi xarici siyasətin əsas formalaşdırıcılarından biri rolunu oynayır. Təsadüfi deyildir ki, İran ilə Azərbaycan arasındakı ən ciddi təhlükəsizlik problemlərindən biri də məhz Xəzərin statusu ilə bağlı problem çərçivəsində yaşanmışdır.

Belə ki, 23 iyul 2001-ci il tarixində Xəzərin Azərbaycan sektorunda daha öncə imzalanmış bir beynəlxalq müqaviləyə əsasən "Alov" yatağında araşdırma aparan Azərbaycanın "Geofizik-3" və "Əlif Hacıyev" gəmiləri üzərində İran hərbi təyyarəsi uçmuş və Azərbaycanın hava sərhəddini pozmuşdur. Daha sonra isə İran hərbi gəmisi Azərbaycanın "Geofizik-3" gəmisinə yaxınlaşaraq bölgəni tərk etməsini, əks təqdirdə güc tətbiq edəcəyini bildirmişdir. Bundan sonra da İran təyyarələri Azərbaycanın hava sərhəddini bir neçə dəfə pozmuşdur.

Halbuki İran Azərbaycanın "Alov" yatağından daha cənubda yerləşən, dolayısıyla İran səhədlərinə daha yaxın olan "Lənkəran Dəniz" və "Talış Dəniz" yataqlarına dair müzakirələrdə iştirak etmişdir. Azərbaycan "Lənkəran Dəniz" və "Talış Dəniz" yataqlarına dair konsorsium formalaşdırarkən İran bu yataqların Azərbaycana aid olduğunu qəbul edərək 13 yanvar 1997-ci il tarixində neftin çıxarılması üçün formalaşdırılmış konsorsiyumlarda yer almışdır. Digər yandan isə 21 iyul 1998-ci il tarixində Azərbaycan hökuməti Qərb şirkətləriylə "Alov", "Araz" və "Şərq" yataqlarının işlədilməsinə dair müqavilə imzalayarkən İran tərəfi etiraz etməmiş və razılıqla qarşılamışdır. İranın bu təzadlı, ancaq kifayət qədər təhlükəli hərəkətinə ilk reaksiya Türkiyədən gəlmişdir.

Türkiyə İrana sərt şəkildə xəbərdarlıq etmiş və bu cür hadisələrə əsla göz yummayacağını bildirmişdir. Daha sonra isə 21 avqust 2001-ci il tarixdə Türkiyənin Baş Qərargah Rəisi General Hüseyin Kıvrıkoğlu Azərbaycana səfər

etmişdir. Kıvrıkoğlunun səfəri vaxtı "Türk Ulduzları" da Bakıda aviaşou nümayiş etdirmişdir. KİV bu səfəri və Türk Ulduzlarının şousunu "Türkiyədən İrana `yerini bil` mesajı" başlıqlarıyla vermişdir. ABŞ da İrana xəbərdarlıq etmiş və Azərbaycana hərbi yardımları artıracağını açıqlamışdır. Daha sonra İranın Azərbaycan sərhədlərini pozma halları dayansa da Xəzərin statusundan qaynaqlanan gərginlik davam edir.

Azərbaycanın keçmiş prezidenti Heydər Əliyevin 2002-ci ilin may ayında reallaşdırdığı İran səfəri Azərbaycan-İran əlaqələrində "Xəzər probleminin" yerini göstərməsi baxımından əhəmiyyətli olmuşdur. Səfərin ilk günü olan Mayın 18-də İran Prezidenti Məhəmməd Xatəmi ilə Azərbaycan Prezidenti Heydər Əliyevin birgə mətbuat konfransında Xəzərin adı ilə bağlı gərginlik yaşanmışdır. Birgə mətbuat konfransında, bir İranlı jurnalistin Heydər Əliyevə "Mazandaran dənizinin statusu necə olacaq" şəklində sual verməsi Heydər Əliyevi əsəbləşdirmişdir. Heydər Əliyev bu suala, "xəritədə elə bir dəniz yoxdur, siz onu haradan çıxardınız?" şəklində başqa bir sualla qarşılıq vermişdir. Xatəminin "yaxşı, bundan sonra Xəzər deyək" sözlərinə Heydər Əliyev, "onsuz da elə həmişə Xəzər olub" şəklində cavab vermiş, daha sonra mövzu dəyişmişdir.

Azərbaycan müstəqilliyinin ilk illərində enerji sektoru ilə bağlı layihələrə İranı da cəlb etməyə çalışmışdır. Burada Azərbaycanın məqsədi İranın mövqeyini yumşaltmaq (müqavimətini zəiflətmək), İran məqsədi isə Azərbaycanda təsir imkanlarına malik olmaq və Qərb şirkətləri ilə birgə konsorsiumlarda yer almaq olmuşdur. Bu məqsədlə Azərbaycan "Əsrin Müqaviləsi" layihəsində İrana da 5% pay verəcəyini açıqlamışdır. Lakin, bir yandan Qərb dövlətlərinin, xüsusilə də ABŞ-ın sərt müxalifəti, digər yandan Rusiya kimi İranın da mövqeyində "Əsrin Müqaviləsi"ndə iştirakla bağlı vahid yanaşmanın olmaması ucbatından İran 1994-cü ilin sentyabrında imzalanan bu müqavilədən kənarda qalmışdır.

Müstəqilliyin ilk illərində Azərbaycan neftinin beynəlxalq bazarlara nəqli ilə bağlı olaraq gündəmə gələn layihələrdə İranın adı hallanmışdır. Belə ki, ilk variantlar arasında Azərbaycan-İran (Bakı-Bəsrə Körfəzi) layihəsi də olmuş, ancaq bu layihə kənarda saxlanılmışdır. Hətta Bakı-Ceyhan layihəsinin Bakı-Təbriz-Ceyhan olaraq çəkilə biləcəyi də gündəmə gətirilmişdir. Amma hər dəfə xüsusilə Qərbin təzyiqləri fonunda bu layihələr ciddi şəkildə müzakirə edilməmişdir.

## Nəticə

Göründüyü kimi Xəzərin statusu məsələsi və Transxəzər əməkdaşlığı mövzusu çox açıq şəkildə regional və hətta qlobal rəqabətin bir parçasına çevrilmişdir. Bu, həm birbaşa Xəzər hövzəsindəki təbii ehtiyatlarla və dolayısıyla qlobal enerji mübarzəsi ilə, həm də coğrafi məkan kimi Cənubi Qafqaz və Orta Asiya ilə əlaqədardır. Müxtəlif, iqtisadi, siyasi, hərbi-təhlükəsizlik v.s. amillər bu rəqabəti sərtləşdirir və bu da öz növbəsində Xəzərin statusu məsələsinə və Transxəzər əməkdaşlığının taleyinə təsir edir. Qeyd olunan bu məqamlar nəzərə almadan Xəzərin statusu məsələsini və Transxəzər əməkdaşlığının taleyini nə tam anlamaq mümkün olar, nə də onları həll etmək.

Bu məsələlərə nisbətən daha dar çərçivədə baxıldıqda isə problemin kökü kimi SSRİ-nin dağılmasından sonra, ortaya dörd dövlətin (Rusiya, Azərbaycan, Qazaxıstan və Türkmənistan) çıxması ilə Xəzərin sahilindəki dövlətlərin sayının

ikidən beşə yüksəlməsi görünür. Artıq bir neçə dəfə qeyd olunduğu kimi status müzakirələri yeni sahilyanı dövlətlərin ortaya çıxması ilə birlikdə başlamışdır. Amma bu müzakirələrin mahiyyətindən də göründüyü kimi, bunlardan Azərbaycan, Qazaxıstan və Türkmənistan Rusiya və İranın maraqlarına zidd şəkildə xarici inverstorları bölgəyə cəlb edərək dünya bazarlarına neft və təbii qaz nəql etmək planları qurmuşdur. Yəni əsas səbəb Xəzər bölgəsi uğrunda mübarizə və digər istiqamətlərdəki mübarizələrin Xəzərə əks olunmasıdır. Əlaqədar hissələrdə də qeyd olunduğu kimi Xəzərin bölgüsünə, Xəzərdə heft və qazın istehsalına və hətta Xəzərin dibi ilə boru kəmərlərinin çəkilməsinə dair təcrübə kifayət qədərdir. Əgər bu təcrübələr olmasaydı Rusiya və İranın etirazları müəyyən qədər anlaşılan olardı.

Digər tərəfdən ilk hissədə də qeyd olunduğu kimi Xəzərin özünəməxsus durumu 1982-ci il tarixli BMDHK-nın Xəzərə rahatlıqla tətbiq olunmasına imkan vermir. Xəzəryanı dövlətlərin imkanları, maraqları, aralarındakı münasibətlərdəki həssas məqamlar, problemləri və s. amillər isə onların beynəlxalq məhkəmələr müraciət etmələrinə əsasən mane olur.

Bu səbəblərdən də Xəzərin statusu məsələsənin və Transxəzər əməkdaşlığının taleyini hazırkı mərhələdə hüquq yox, real imkanlar həll edəcəkdir. Türkmənistan ilə Azərbaycan arasındakı problemlər də vacib olmaqla yanaşı, burada həlledici olan Rusiya və İranın mövqeləridir. Xüsusilə Rusiyanın mövqeyində, siyasətində və imkanlarında dəyişiklik olmadığı müddətcə sadəcə Transxəzər əməkdaşlığı ilə bağlı deyil, Xəzərin statusu məsələsinin həlli ilə bağlı da irəliləyişlərin olması çox çətindir.

İki qonşusu Azərbaycan və Qazaxıstan ilə Xəzərin paylaşılmasına dair müqavilələr imzalayan Rusiya, oxşar müqavilələrin Türkmənistan və İranın da iştirakı ilə imzalanmasını arzu etmir və bunu öz Xəzər siyasətinin sığortası hesab edir. Çünkü Xəzərin statusu ilə bağlı İranın inad etdiyi mövqeyin əksinə ola biləcək istənilən irəliləyiş Transxəzər əməkdaşlığının yolunu aça bilər və Rusiya buna heç bir halda yol vermək istəmir.

İran Xəzərin statusu və Transxəzər əməkdaşlığı məsələsində Rusiyadan daha inadkar əsk mövqe nümayiş etdirən dövlət olsa da imkanları Rusiya ilə müqayisdə zəifdir və Rusiyanın dəstəyi olmadan sadəcə Xəzərin statusu məsələsinin tam həllinə mane ola bilər. Transxəzər əməkdaşlığının boru kəmərləri hissəsinin isə İrana rəğmən reallaşdırılması da mümkündür. Amma İran-Azərbaycan münasibətlərindəki və xüsusilə də İran-Qərb münasibətlərindəki irəliləyişlər bu iki məsələyə müsbət töhfə də verə bilər.
İranın mövqeyindəki zəif ehtimal da mümkün dəyişikliyə, Rusiyanı oyunu ya çox açıq oynamağa ya da tək qalmamaq üçün müəyyən güzəştlərə getməyə məcbur edə bilər. Həm Rusiyanın, həm də İranın mövcud siyasətlərini əsasən davam etdirəcəyini proqnozlaşdırmaq mümkündür.

Azərbaycan Xəzərin statusu məsələsinin həllini arzulayır, amma bu tam reallaşmadan da öz enerji layihələrini həyata keçirə bildiyi üçün bunu özü üçün həyati dərəcədə vacib bir məsələ hesab etmir. Azərbaycan rəsmilərinin mövqeyindən də göründüyü kimi bu ölkə Transxəzər boru kəmərləri məsələsində istəklidir, amma bunun məsuliyyəti və xərcləri tam olaraq öz üstünə götürmədən reallaşmasını istəyir. Bununla Azərbaycan həm Qərb dövlətləri, həm də Xəzərin şərqindəki dövlətlər baxımından əhəmiyyətini artırmış, eyni zamanda maddi gəlir

də əldə etmiş olacaq. Azərbaycanın bu istiqamətdəki fəallığı, Rusiya ilə münasibətlərindən və Rusiyanın gücündəki və siyasətindəki dəyişikliklərdən asılı olacaq.

Xəzərin statusu problemi Qazaxıstan üçün demək olar ki, problem kimi mövcud deyil. Bu amil sadəcə olaraq Transxəzər əməkdaşlığını məhdudlaşdırıcı amil kimi Qazaxıstanı narahat edir. Qazaxıstan Transxəzər əməkdaşlığında çox maraqlıdır və bunu Qazaxıstanın fəallığından da görmək mümkündür. Amma bu ölkə də Rusiyaya rəğmən Transxəzər boru kəmərlərində iştiraka çox meylli olmayacaqdır.

Türkmənistan üçün Xəzərin statusu ciddi problem, Transxəzər əməkdaşlığı isə vacibdir. Azərbaycan ilə mübahisəli yataqlar Türkmənistan üçün strateji əhəmiyyətə malikdir. Ancaq Transxəzər əməkdaşlığı ilə bağlı ortada real ciddi imkanlar olduqda Türkmənistan bu problemlərin həllində orta yolu tapmağa meylli olacaqdır. Rusiyanın nisbətən daha az təsir imkanlarına malik olması səbəbiylə Türkmənistan Transxəzər boru kəmərləri məsələsində daha cəsarətli addımları ata biləcək dövlətdir.

Xəzərin statusu məsələsinin həlli və ondan daha da əhəmiyyətlisi Transxəzər əməkdaşlığının genişlənməsi, eləcə də Transxəzər boru kəmərlərinin çəkilməsi hazırkı durumda ən çox Qərb üçün əhəmiyyətlidir. Bu baxımdan Qərbin Türkmənistana, eləcə də Azərbaycana və Qazaxıstana çox ciddi dəstəyi və Rusiya üzərindəki təzyiqi Xəzəryanı dövlətlərin cəsarətləndirilməsi baxımından əhəmiyyətli amil olacaqdır. Bu istiqamətdə ABŞ, Aİ və Türkiyənin bəzən birgə, bəzən də ayrı-ayrılıqda istər Rusiya ilə münasibətlərdə, istərsə də Azərbaycan, Türkmənistan və Qazaxıstan ilə münasibətlərdə açıq mövqe nümayiş etdirmələri zəruridir.

Hazırkı mərhələyə qədər dövlətlərin mövqeyindən belə aydın olur ki, tərəflərdən heç biri Transxəzər kəmərinin sahibi kimi ortaya çıxmaq istəmir. Amma növbəti mərhələdə artıq bu dəyişməlidir. Azərbaycan, Qazaxıstan və Türkmənistan ilə müqayisədə daha rahat hərəkət etmək imkanı olan ABŞ, Aİ və Türkiyə bu layihənin reallaşmasını istəyirsə, layihənin sahibi kimi daha açıq mövqe nümayiş etdiməlidirlər. Ya bu dövlətlər tərəfindən açıq şəkildə siyasi və iqtisadi cəhətdən dəstəklənən böyük şirkətlər ya da dövlətlər özləri birbaşa Transxəzərlə bağlı məsuliyyət götürməlidirlər.

Digər tərəfdən həm Xəzərin statusu, həm də Transxəzər məsələsi baxımından Azərbaycan, Türkmənistan və Qazaxıstanın nəhayət ki, mövqelərini ciddi dərəcədə yaxınlaşdırmaları xüsusi əhəmiyyət daşıyır. Bu dövlətlər ikitərəfli və üçtərəfli formatlarda qeyd olunan mövzularla bağlı müzakirələri sıxlaşdırmalıdırlar. Hətta Azərbaycan, Türkmənistan və Qazaxıstanın iştirakı ilə üçtərəfli formatın, əgər bu ehtimal Rusiya və İran amillərinə görə çətin görünürsə, maraqlı böyük güclərdən ən azı birinin iştirakı ilə dördtərəfli formatın reallaşdırılması faydalı olar.

*Aİ + Azərbaycan + Qazaxıstan + Türkmənistan, ABŞ + Azərbaycan + Qazaxıstan + Türkmənistan, Türkiyə + Azərbaycan + Qazaxıstan + Türkmənistan ya da Azərbaycan + Qazaxıstan + Türkmənistan + Aİ + ABŞ + Türkiyə* formatları yaradıla bilər, amma imkanlar və Rusiya ilə İranın mümkün reaksiyaları qarşısında, eləcə də Azərbaycan, Türkmənistan və Qazaxıstanın mövcud xarici

siyasətləri fonunda daha real olanı *Aİ+Azərbaycan+Qazaxıstan+Türkmənistan* formatıdır.

Adları qeyd olunan dövlətlərin və Aİ-nin müvafiq strukturlarının nəzdində Transxəzər ilə bağlı xüsusi şöbələrin yaradılması və bu istiqamətdəki siyasətin bir başa dövlət başçıları səviyyəsində diqqətdə saxlanılması zəruridir. Bu həm də Azərbaycan, Türkmənistan və Qazaxıstan arasında kənar güclər tərəfindən törədilməsi mümkün provokasiyaların qarşısının alınmasına da imkan yardacaqdır. Yaradılacaq olan çoxtərəfli format tədricən bir instituta (quruma) çevrilməli, bu qurumda tərəflər prezidentin xüsusi nümayəndəsi səviyyəsində təmsil olunmalıdırlar.

Birbaşa Transxəzərlə bağlı praktiki addımlara gəldikdə isə Xəzərdə Azərbaycan, Türkmənistan və Qazaxıstanın sualtı kəmər şəbəkələri arasında birləşdirici daha kiçik kəmərlərin çəkilməsi nisbətən daha asan görünür. Bu cür kəmərlərin maliyyə və texniki məsələlərinin həlli daha asan olacaqdır. Amma, bunlar da Rusiya və İranın sərt müqavimətindən sığortalanmayıb. Ona görə zəruri ön hazırlıqlar görülmədən bu istiqamətdə addımların atılmasına başlanmamalıdır.

Cəmiyyətlərin bu istiqamətdəki məlumatlılığının artırılması, qəraralma posesində iştirakçılığın artması və qərarvericilər üzərində müsbət mənada təzyiq yaradılması üçün mövzu ilə bağlı müzakirələrin sıxlaşdırılması faydalıdır. Bu cür müzakirələrdə populist baxışdan daha çox mövcud vəziyyətin düzgün təhlili, gələcəklərlə bağlı ehtimalların ortaya qoyulması və konkret təkliflərin irəli sürülməsi faydalı olar.

Beləliklə, siyasi məsuliyyət, maliyyət və digər istiqamətlər üzrə Xəzəryanı dövlətlərin səylərini artırmaları, amma daha əhəmiyyətlisi Qərbin ciddi rolu orta mərhələdə Transxəzər boru kəmərləri ilə bağlı ən azı bir kəmər təcrübəsinin ortaya çıxmasına səbəb ola bilər.